AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 18 (1363), 1 - 7 may 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Azərbaycan Prezidenti İlham Əliyev Dünya Güləş Birliyinin prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.

Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç dövlətimizin başçısını prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi. Nenad Laloviç Bakıda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı. O, məmnunluq hissi ilə qeyd etdi ki, Azərbaycan güləş idman növündə dünyanın ən aparıcı ölkələri sırasındadır.

Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarının təşkil olunduğu məkana çevrildiyini qeyd edən Nenad Laloviç 2015-ci ildə birinci Avropa Oyunlarının ölkəmizdə çox gözəl təşkilinin dünya idman ictimaiyyəti tərəfindən böyük maraqla izlənildiyini dedi. Azərbaycan güləşçilərinin əldə etdiyi uğurlara toxunan qonaq ABŞ-da sərbəst güləş üzrə dünya kuboku yarışlarında Azərbaycan yığma komandasının ikinci yer tutmasının önəmini qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafının sağlam gənc nəslin və perspektivli idmançıların yetişməsi baxımından böyük önəm daşıdığını bildirdi, Azərbaycan idmançılarının müxtəlif sahələrdə, o cümlədən güləş idman növündə böyük uğurlar qazandığını məmnunluqla qeyd etdi.

Nenad Laloviç müxtəlif illərdə güləş idman növündə xidmətlərinə görə və birlik tərəfindən seçilmiş fəxri insanlar üçün təyin olunmuş Dünya Güləş Birliyinin ən ali mükafatı "Qızıl Orden"i dövlətimizin başçısına təqdim etdi.

Dövlətimizin başçısı mükafata görə minnətdarlığını bildirdi.




## Bakıda keçirilən möhtəşəm Formula 1 Azərbaycan Qran-Prisi başa çatıb

### *Azərbaycan Prezidenti İlham Əliyev Qran-Prinin açılış mərasiminə və final yarışına baxıb*

Aprelin 29-da Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas mərhələsi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula 1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Kompleksdə Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Sonra pilotların paradı və himn mərasimi keçirildi.

*(ardı 2-ci səhifədə)*

## Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizerdən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qazandığınız qələbəyə görə Sizi beynəlxalq cüdo cəmiyyəti adından və şəxsən öz adımdan təbrik edirəm.

Yenidən Prezident seçilməyiniz Zati-alinizin güclü və müdrik liderliyinin sübutudur. Əminəm ki, Prezidentliyinizin yeni dönəmində də Azərbaycanın inkişafı davam edəcək, xalqınızın rifahı daha da yaxşılaşacaq.

***Dərin ehtiramla,***
***Marius Vizer***
***Beynəlxalq Cüdo Federasiyasının prezidenti***



## İtaliyadan gümüş medal

İtaliyanın Breşiya şəhərində keçirilən batut gimnastikası üzrə Dünya kuboku yarışlarına yekun vurulub.

Yarışda təmsilçilərimiz arasında ən yaxşı nəticəni sinxron proqramda çıxış edən gimnastlarımız göstəriblər. Belə ki, Svetlana Makştaryova və Veronika Zemlyanayadan ibarət cütlüyümüz 46.090 xalla finala vəsiqə qazanıblar. Təmsilçilərimiz yekun nəticədə 7-ci yeri tutublar.

Kubok yarışları ilə bərabər İtaliyanın Breşiya şəhərində həm də yeniyetmələr arasında beynəlxalq turnir keçirilib. 15 ölkədən idmançıların iştirak etdiyi yarışda gimnastımız adını medalçılar sırasına yazdırmağı bacarıb. Belə ki, Selcan Mahsudova fərdi proqramda uğurla çıxış edərək yarışın gümüş medalını qazanıb.

**Futbol üzrə dünya çempionatına 44 gün qalır**

FIFA WORLD CUP RUSSIA 2018

***Anons***

Bakıda bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirilib
Səh. 3

Pəhləvanlarımız Avropa çempionatında mübarizə aparırlar
Səh. 4

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Uşaq və gənclərin sağlamlığı diqqət mərkəzindədir

Səh. 5

## Komandamız qitə çempionatını iki medalla başa vurdu



İsrailin Təl-Əviv şəhərində keçirilən cüdo üzrə Avropa çempionatına yekun vurulub. Yarışın ilk günü cüdoçularımızdan ən yaxşı nəticəni 66 kq çəki dərəcəsində mübarizə aparan Orxan Səfərov göstərib. Xorvatiya, İsrail, Portuqaliya təmsilçilərinə qalib gələn Orxan yarımfinalda Sloveniya, 3-cü yer uğrunda görüşdə isə Belarus cüdoçusuna uduzaraq 5-ci yeri tutub. Bu çəkidə yarışan digər idmançımız Nicat Şıxəlizadə isə qitə çempionatında 7-ci yerdə qərarlaşıb. Yarışın ilk günündə mübarizə aparan qadın cüdoçularımız isə ilkin mərhələdə rəqiblərinə məğlub olublar. Yarışın ikinci günündə Azərbaycan təmsilçisi komandamızın aktivinə bir medal yazdırıb. 73 kq çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov Avropa çempionatında gümüş medala layiq görülüb. Bu çəkidə yarışan digər cüdoçumuz Rüstəm Orucov isə ilk mərhələdə uduzaraq medalsız qalıb.

Mötəbər yarışın sonuncu günü milli komandamız aktivinə daha bir medal yazdırıb. 100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Zelim Kotsoyev qitə çempionatında bürünc medal qazanıb. Beləliklə, Azərbaycan millisi Təl-Əvivdə keçirilən qitə çempionatını bir gümüş və bir bürünc medalla başa vurub.

# Bakıda keçirilən möhtəşəm Formula 1 Azərbaycan Qran-Prisi başa çatıb

## *Azərbaycan Prezidenti İlham Əliyev Qran-Prinin açılış mərasiminə və final yarışına baxıb*

*(əvvəli 1-ci səhifədə)*

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. Formula 1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının “Gələcəyin ulduzları” adlı birgə təşəbbüsü çərçivəsində qəbul edilən yeni qərara əsasən, builki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət ediləcəklər.

Daha sonra Azərbaycan Respublikasının dövlət himni ifa olundu. Dövlət himnini Azərbaycanın əməkdar artisti, Prezident təqaüdçüsü İsfar Sarabskinin pianoda müşayiəti ilə musiqi yarışmasının qalibi Samirə Əfəndi ifa etdi.

x x x

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Fox Sport” televiziya kanalına müsahibə verdi.

**Prezident İlham ƏLİYEV:** Bu, dünya əhəmiyyətli bir tədbirdir. Biz çox şadıq ki, üçüncü dəfə Formula 1 Bakıda keçirilir. Hamı yarışdan həzz alır. Əminəm ki, qonaqlar da həzz alır, onlar burada bizimlədirlər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyini görürlər. Qonaqlar şəhərimizin necə də gözəl olduğunu görürlər və bu, möhtəşəm bir tədbirdir. Biz çox şadıq.

**Müxbir:** Siz bu küçələri tanıyırsınız, bu gün kim qalib gələcək?

**Prezident İlham ƏLİYEV:** Mən bilmirəm. Hər kəsə qalib olmağı arzu edirəm və qalib gələn hər kəs burada qəhrəman olacaq.

**Müxbir:** Təşəkkür edirəm.

x x x

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət final mərhələsinə start verildi.

Final mərhələsində hər birində iki pilot olan on komandanın bir gün əvvəl keçirilən sıralanma yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə “Ferrari” komandasının pilotu Sebastian Fettel, “Mercedes” komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsi şəraitində keçən Qran-Prinin əsas mərhələsində 20 pilotdan 13-ü finiş xəttinə çata bildi. Azərbaycan Qran-Prisinin qalibi “Mercedes” komandasının britaniyalı pilotu Luis Hamilton oldu. Pilot məsafəni 1 saat 43 dəqiqə 44,291 saniyəyə başa vurdu. “Ferrari”nin sürücüsü Kimi Raikkonen ikinci, “Force India” komandasının pilotu Serxio Peres isə üçüncü oldular.



Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Qran-Prinin qalibi Luis Hamiltona kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Konstruktorlar kubokunu “Mercedes” komandasının nümayəndəsi Uilyam Qolbourna təqdim etdi.

İkinci yerin sahibi, “Ferrari”nin sürücüsü Kimi Raikkonenə kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan “Force India” komandasının pilotu Serxio Peresə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Qeyd edək ki, Bakı trekində qalib gəlməklə Luis Hamilton “Ferrari”nin pilotu Sebastian Fetteli qabaqlayaraq çempionatda liderliyi ələ alıb. Bu qələbə sayəsində xallarının sayını 70-ə çatdıran britaniyalı pilot birinci sıraya yüksəlib. İkinci sıraya geriləyən S.Fettelin aktivində 66 xal var. Azərbaycan Qran-Prisində ikinci yeri tutan “Ferrari”nin pilotu Kimi Raikkonen xal ehtiyatını 48-ə çatdıraraq üçüncü sırada qərarlaşıb. Qran-Pridə üçüncü olan “Force India” komandasının pilotu Serxio Peres isə 9-cu sıraya yüksəlib.

Komandaların yarışında isə “Ferrari” komandası 114 xalla birinci sıradadır. “Mercedes” 110 xalla ikinci, “Red Bull Racing” isə 55 xalla üçüncü sırada qərarlaşıblar.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 27-də start verilib. Yarışın birinci günündə pilotlar 6 kilometrlik Bakı şəhər trekində iki sərbəst yürüşdə güclərini sınayıblar. Birinci sərbəst yürüşdə “Mercedes” komandasının pilotu Valtteri Bottas qalib gəlib. “Red Bull Racing” komandasının pilotu Daniel Rikkardo ikinci, “Force India”nın pilotu Serxio Peres isə üçüncü olublar. İkinci sərbəst yürüşdə “Red Bull Racing”in pilotu Daniel Rikkardo fərqlənib. “Ferrari”nin pilotu Kimi Raykonnen ikinci, “Red Bull Racing”in digər pilotu Maks Ferstappen isə üçüncü sırada qərarlaşıblar. Yarışın üçüncü sərbəst yürüşü aprelin 28-də keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən yürüşdə “Ferrari” komandasının pilotu Sebastian Fettel birinciliyə yüksəlib. “Mercedes”in pilotu Luis Hamilton yürüşü ikinci, “Ferrari”nin digər pilotu Kimi Raikkonen isə üçüncü yerdə başa vurub. Ötən gün keçirilmiş sıralanma yürüşündən sonra isə Qran-Pridə pilotların düzülüşü müəyyənləşib.

Qran-Pri çərçivəsində Formula 2 üzrə yarışların qalibləri də müəyyənləşib. Aprelin 28-də keçirilmiş ilk yarışda “Dams” komandasının pilotu Aleksander Albon qalib adını qazanıb. “ART Grand Prix”in pilotu Cek Aitken ikinci, “Charouz Racing System”in üzvü Antonio Fuoko üçüncü yeri tutublar. Aprelin 29-da keçirilən ikinci yürüşün qalibi isə “ART Grand Prix” komandasının pilotu Corc Russel olub. “Carlin” komandasının pilotu Serjio Sette Kamara finiş xəttinə ikinci, “Pertamina Prema Theodore Racing”in pilotu Nik De Vries üçüncü çatıblar.

Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilən Formula 1 Avropa Qran-Prisinin qalibi “Mercedes”in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə Formula 1 Azərbaycan Qran-Prisi “Red Bull Racing” komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb.

Dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula 1 yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Son illərdə birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına və bir çox nüfuzlu beynəlxalq yarışlara uğurla ev sahibliyi edən paytaxt Bakının Formula 1 kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar da ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır. Bu, həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır.

Formula 1 yarışlarının Bakı mərhələsi dünyada böyük maraq toplayıb. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər trası nadirliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi Azərbaycan Qran-Prisi də şəhər trasına ev sahibliyi edir. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı Bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirdi. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazanırlar.

Beləliklə, növbəti Formula 1 Azərbaycan Qran-Prisi uğurla başa çatdı. Bu dəfə də bu mötəbər yarışı qəbul edən Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi. Qarşıda hələ neçə-neçə mötəbər beynəlxalq yarışların keçiriləcəyi paytaxtımız yenə də dünyanın diqqət mərkəzinə çevrildi, Formula 1 tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi oldular.




# Formula 1 üzrə Azərbaycan Qran-Prisi dünya mətbuatının əsas manşetidir

Türkiyənin Anadolu Agentliyi Formula 1 üzrə Azərbaycan Qran-Prisi barədə geniş məlumat yayıb.

Məlumatda Azərbaycan Qran-Prisinin qalibi adını “Mercedes” komandasının sürücüsü Luis Hamiltonun əldə etdiyi bildirilir. Qeyd edilir ki, Luis Hamilton bu qələbə sayəsində Formula 1 üzrə dünya çempionatında liderliyə yüksəlib.




Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxdıqları türkdilli oxucuların diqqətinə çatdırılıb.

Anadolu Agentliyi yarışın gedişi, digər yerləri tutmuş pilotlar haqqında da ətraflı məlumat verib. Agentlik yarış prosesini əks etdirən 33 şəkildən ibarət fotosessiya da təqdim edib. Bu fotolar təkcə yarışın əzəmətini yox, eyni zamanda, paytaxtımızın gözəlliyini, tarixi binalarını və müasir görkəmini də əks etdirir.

Mətbuatda Qran-Prinin qalibi Luis Hamiltona kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təqdim etdiyi bildirilir.

Məlumatda qeyd edilir ki, Formula 1 üzrə dünya çempionatının beşinci mərhələsi mayın 11-13-də İspaniyanın Barselona şəhərində keçiriləcək.

* * *

Belarusun nüfuzlu informasiya agentlikləri olan BELTA və SPUTNİK, həmçinin bir sıra xəbər saytları Formula-1 Azərbaycan Qran-Prisinə geniş yer ayırıb. BELTA dövlət informasiya agentliyində Bakıda Formula 1 Qran-Prisinin turistlər üçün daha cəlbedici olması barədə məqalə yayılıb. Məqalədə qeyd olunur ki, Bakıda Formula-1 yarışı ərəfəsində turistlər üçün maraqlı layihələr həyata keçirilib.

SPUTNİK informasiya agentliyinin yaydığı “Formula 1: Luis Hamilton Azərbaycan Qran-Prisinin qalibi oldu” sərlövhəli yazıda yarışın gedişi, eləcə də pilotlar barədə geniş məlumat verilib.

* * *

Formula-1 Azərbaycan Qran-Prisi Hollandiya mətbuatında da geniş şəkildə işıqlandırılıb. Yayılan məlumatlarda yarışlarla yanaşı, ölkəmiz haqqında da ətraflı məlumat verilib. Bu yarışların Azərbaycanda keçirilməsi ölkənin böyük uğuru kimi qiymətləndirilib. Yarışlara Hollandiyadan qatılan idmançı Maks Verstappen Azərbaycanın paytaxtında özünü öz evindəki kimi hiss etdiyini və Bakının İçərişəhər hissəsinin yarışçılar üçün xüsusilə həyəcanverici olduğunu bildirib. Yazılarda Azərbaycanda yarışların yüksək səviyyədə keçirilməsi alqışlanır.

* * *

Fransanın sport24.lefigaro.fr, www.lequipe.fr, www.largus.fr portalları Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisi haqqında məlumatlar yayıb.

Fransa portalları oxucuları yarışın gedişi, pilotlar barədə ətraflı məlumatlandırıb, yarışların 2017-ci ildəki kimi cəlbedici olduğunu yazıb.

* * *

Çin avtomobil idmanı həvəskarları Formul 1 Azərbaycan Qran-Prisini böyük maraqla izləyiblər.

Çinin kütləvi informasiya vasitələri Formula 1 Azərbaycan Qran-Prisi haqqında geniş reportajlar yayıblar.

Rəsmi xəbər agentliyi Sinxua ilə yanaşı, Çin Mərkəzi Televiziyasının idman kanalı CCTV5, nüfuzlu idman qəzetləri, portalları və digər kütləvi informasiya vasitələri Azərbaycan trekinin özünəməxsusluğundan, gərgin keçən mübarizədə “Mercedes” komandasının britaniyalı pilotu Luis Hamiltonun qələbəsindən söz açıblar.

Qeyd olunub ki, Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında 7,6 metr təşkil edir.

Çin mətbuatı yazır ki, Bakı treki yarışı tribunadan və televiziya efirindən izləyənlərin şəhərin memarlıq abidələrini görə bilmələrinə imkan yaradıb. Formula 1 Azərbaycan Qran-Prisi və Bakı haqqında fotosessiya ilə zəngin olan xəbərlərdə qeyd olunur ki, növbəti illərdə də Bakıda keçiriləcək bu yarış Azərbaycana turist axınının çoxalmasına müsbət təsir göstərəcək.

* * *

Birləşmiş Ərəb Əmirlikləri, Misir, Səudiyyə Ərəbistanı və digər ərəb ölkələrinin kütləvi informasiya vasitələri Bakıda keçirilmiş Formula 1 Azərbaycan Qran-Prisini geniş işıqlandırıb.

Bir sıra nüfuzlu xəbər portalları Formula 1 Azərbaycan Qran-Prisi barədə geniş məlumatlar yayıb, yarışların gedişi, nəticələri, pilotlar haqqında oxucuları məlumatlandırıb.

* * *

Rumıniyanın və Bolqarıstanın milli xəbər agentlikləri AGERPRES və BTA, eyni zamanda “hotnews.ro” və “sportal.bg” portalları Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisi ilə bağlı xəbərlərə geniş yer ayırıblar. Yarışın gedişi, cəlbediciliyi, pilotlar, burada olan yeniliklər barədə məlumatlar, şəkillər və videolar yayıblar.

Məlumatlarda Azərbaycan Qran-Prisinin qalibi adını “Mercedes” komandasının sürücüsü Luis Hamiltonun qazandığı, bu qələbə sayəsində onun Formula 1 üzrə dünya çempionatında liderliyə yüksəldiyi qeyd edilir. Formula 1 üzrə dünya çempionatının beşinci mərhələsinin mayın 11-13-də İspaniyanın Barselona şəhərində keçiriləcəyi də oxucuların diqqətinə çatdırılır.

* * *

İsveç və Danimarka KİV-ləri Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisindən yazıblar.

İsveçin “Dagens Nyheter”, “Aftonbladet”, “Expressen”, “Boras Tidning”, habelə Danimarkanın “Ekstrabladet”, “Politiken”, “Berlingske”, “Jyllands-posten” və “Metroexpress” kimi məşhur nəşrləri ölkəmizdə keçirilən Formula 1 yarışları haqqında məqalələrdə və videomateriallarda Şimali Avropadan olan pilotların Azərbaycan Qran-Prisində çıxışı və qazanılan nəticələrlə bağlı ətraflı məlumat veriblər. Xəbərlərdə Azərbaycanda təşkil olunan Formula-1 yarışlarının fanatlara həyəcanlı anlar yaşatdığı bildirilir.

Gimnastika

# Bakıda bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirilib

## Azərbaycanın qrup hərəkətləri komandası bürünc medal qazandı

***Aprelin 27-29-da Bakıda bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirildi.***

***Azərbaycanda altıncı dəfə təşkil edilən kubok yarışlarında 26 ölkədən 127 gimnast mübarizə apardı. Gimnastlardan 44-ü fərdi proqramda, 83-ü isə qrup komandalarının tərkibində çıxış etdi.***

***Yarışların ilk iki günündə fərdi gimnastlar və qrup hərəkətləri komandaları təsnifat mərhələsində güclərini sınadılar. Yarışların sonuncu günündə isə final mərhələsinin nəticəsindən asılı olaraq ən güclü 8 fərdi gimnast və 8 qrup hərəkətləri komandası birincilik uğrunda mübarizə apardı.***

Dünya kubokunun nəticələrinə görə, 8 ölkə mükafatçılar sırasında yer aldı. Turnirdə ən çox medal qazanan ölkə Rusiya oldu. Şimal qonşularımız qrup yarışlarında təmsil olunmasalar da, ümumilikdə, yarışı 6 (4 qızıl, 1 gümüş, 1bürünc) medalla başa vurdular. Bolqarıstan ikisi qızıl, üçü gümüş olmaqla 5 medal, Ukrayna biri qızıl, biri gümüş və ikisi bürünc olmaqla 4 medala sahib oldu. Dünya kubokunun mükafatçılarından İtaliya yarışlarda 2 (1 qızıl, 1 gümüş), Yaponiya 3 (1 gümüş, 2 bürünc), Belarus 2 (1 gümüş, 1 bürünc) medala yiyələnib. Azərbaycan və ABŞ isə hərəyə 1 bürünc medal qazandılar.

Azərbaycanı bədii gimnastika ürə Dünya kuboku yarışlarında 7 gimnastımız təmsil etdi. Ayşən Bayramova, Diana Doman, Zeynəb Hümmətova, Aliyə Paşayeva və Siyana Vasilevadan ibarət yığmamız qrup komandaları arasında, Zöhrə Ağamirova və Veronika Hudis isə fərdi yarışlarda qüvvələrini sınadılar.

Aprelin 27-də bədii gimnastika üzrə Dünya kuboku yarışlarının açılış mərasimi keçirildi.

Əvvəlcə meydana iştirakçı ölkələrin bayraqları gətirildi.

Mərasimi giriş sözü ilə açan Prezident Administrasiyası Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev qonaqları və yarış iştirakçılarını salamladı. Azərbaycanda idmanın yüksək sürətlə inkişafından danışan Yusuf Məmmədəliyev dedi: "Bu gün Azərbaycan irimiqyaslı beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edir. Təkcə aprel ayında gimnastika üzrə üç mötəbər tədbir keçirilib. Bugünlərdə ölkəmiz daha bir beynəlxalq yarışı - Formula 1 turnirini qəbul edir. İnanırıq ki, ölkəmiz, paytaxt Bakı həmişə olduğu kimi, bu dəfə də qonaqpərvərliyi ilə yaddaşlarda qalacaq".

Azərbaycanda gimnastikanın, xüsusilə də bədii gimnastikanın sürətli inkişafından, gimnastlarımızın əldə etdiyi nailiyyətlərdən danışan natiq dedi: "Son illər gənc qızların sevimli idman növünə çevrilmiş bədii gimnastikaya maraq günü-gündən artır. Bunun nəticəsidir ki, gimnastlarımız artıq beynəlxalq yarışlarda ölkəmizi layiqncə təmsil edir, yaxşı nəticələr göstərirlər.

Artıq formalaşmış Aərbaycan gimnastika məktəbinin yetirmələri bizləri medallarla sevindirirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idman sahəsində düşünülmüş uğurlu siyasəti, ölkənin birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində gimnastikada uğurlarımız artmaqda davam edir. Dünya kuboku yarışlarında 25 ölkədən idmançılar iştirak edirlər. Təbii ki, belə yarışlar idmançılarımızın ustalıqlarının artmasında çox mühüm rol oynayır".

Prezident Administrasiyası Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Dünya kuboku yarışlarını açıq elan etdi.

Sonra Azərbaycanın Dövlət Himni səsləndirildi.

Açılış mərasimi bədii hissə ilə davam etdi. Bəşəriyyətin yaranışında mühüm rol oynayan Su, Od, Yel və Torpaq ünsürləri bu turnirin açılış mərasiminin bədii hissəsinin əsas komponentlərini təşkil edirdi. Qədim dövrdən bu günə kimi haqqında bir çox hekayələr qoşulan həmin ünsürlər gimnastların təqdimatında yeni nəfəslə tamaşaçılara təqdim olundu. Kompozisiyanın quruluşçu rejissorları fəlsəfi ideyalardan ilhamlanaraq, həyati əhəmiyyət daşıyan bu komponentlərin təkcə Yer kürəsinin yaradılışında deyil, idmanda da əks olunduğunu nümayiş etdirdilər. Tamaşaçılara təqdim olunan maraqlı kompozisiyada gimnastika növləri üzrə milli komandaların üzvləri və xoreoqrafları iştirak etdilər.

Yarışın ən maraqlı personaji Bakıda keçirilmiş batut gimnastikası, ikili mini batut və tamblinq üzrə 26-cı Avropa çempionatının maskotu - "Qur-Qur" oldu.

Aprelin 28-də fərdi proqramda qaliblər müəyyənləşdi. "A" və "B" qruplarında çıxış edən gimnastların ümumi nəticələrinin cəminə görə rusiyalı Maria Sergeyeva 69,050 xalla bütün rəqiblərini qabaqladı. Ukraynalı Vlada Nikolçenko 67,550 xalla gümüş, Belarus təmsilçisi Anastasiya Salos isə 66,550 xalla bürünc medala layiq görüldü.

Həmin gün çoxnövçülük (gürzlər və lent) üzrə "A" qrupunda çıxış edən gimnastlarımız Zöhrə Ağamirova və Veronika Hudis iki hərəkətin cəmində müvafiq olaraq 29,250 və 30,050 xal topladılar. Çoxnövçülük üzrə ümumi nəticədə Veronika Hudis 60.650 xal, Zöhrə Ağamirova isə 59,750 xal toplayaraq, müvafiq olaraq 12-ci və 17-ci yerləri bölüşdürdülər.




### İsrail idmançısı ən yüksək mükafata layiq görüldü

Bu il keçirilən Dünya kuboku yarışlarının bütün mərhələlərində ən yaxşı nəticə göstərən İsrail gimnastı Linoy Aşram BGF-in xüsusi mükafatına layiq görüldü. İdmançı Bakıda keçirilən sonuncu - dördüncü Dünya kuboku yarışlarında iştirak etməsə də, ona bu mükafat əvvəlki üç dünya kubokunun nəticələrinə əsasən təqdim olundu. Mükafatı İsrail Gimnastika Federasiyasının nümayəndəsi Fira Voronova təhvil aldı. Bundan başqa, İtaliya komandası, həmçinin "AGF Trophy-2018" və Dünya kuboku yarışlarının ən yüksək mükafatını aldı.







Fərdi çoxnövçülük üzrə "Ən yüksək icra xalı" nominasiyasının qalibi isə Rusiya təmsilçisi Mariya Sergeyeva oldu. "AGF Trophy" kubokunu ona Mariana Vasileva təqdim etdi.

Bədii gimnastika üzrə Dünya kuboku yarışlarının sonuncu günündə qrup hərəkətləri yarışlarının finalçıları, beş halqa ilə çıxışların, üç top və iki iplə kompozisiyaların qaliblərinə mükataflar verildi.

Halqa ilə hərəkətlərdə rusiyalı Mariya Sergeyeva 18,200 xalla birinci, Belarus gimnastı Katsiarina Halkina 17,750 xalla ikinci, ABŞ təmsilçisi Laura Zenq 17,350 xalla üçüncü oldu. Fərdi proqramda ayrı-ayrı alətlər üzrə Dünya kuboku mərhələlərinin nəticəsinə əsasən, halqa ilə yarışların qalibi bolqarıstanlı Boryana Kaleyn "AGF Trophy" kuboku ilə təltif olundu.

Topla yarışların nəticəsinə əsasən, Rusiya gimnastları Yekaterina Selezneva və Mariya Sergeyeva müvafiq olaraq 18,200 və 18,100 xal toplayaraq birinci və ikinci yerləri bölüşdürdülər. Yaponiyalı Kaho Minaqava 17,950 xalla üçüncü yeri tutdu. Rusiyalı Y.Selezneva birinciliklə yanaşı, dünya kuboku mərhələlərinin nəticələrinə görə topla hərəkətlərin qalibi kimi "AGF Trophy" kubokuna da sahib oldu.

Gürzlərlə mübarizədə isə 18,100 xal toplayan Ukrayna gimnastı Vlada Nikolçenko bütün rəqiblərini qabaqladı. Bolqarıstanlı Boryana Kaleyn 17,800 xalla ikinci, ondan cüzi fərqlə geri qalan rusiyalı Mariya Sergeyeva 17,700 xalla üçüncü pillədə qərarlaşdı. Gürzlərlə yarışlarda "AGF Trophy" kubokunu da qızıl medalın sahibi Ukrayna gimnastı V.Nikolçenkoya nəsib oldu.

Lentlə hərəkətlərdə Rusiya təmsilçisi Mariya Sergeyeva yenidən fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Belə ki, o, 16,800 xal toplayaraq ayrı-ayrı alətlər üzrə fərdi proqramda ikinci dəfə qızıl medala sahib oldu. Bolqarıstanlı Katrin Taseva 16,400 xalla yarışların gümüş, Ukrayna gimnastı Vlada Nikolçenko (16,050) isə bürünc mükafatını qazandı. Lentlə yarışlarda ikinci olan bolqarıstanlı Katrin Taseva həm də "AGF Trophy" kubokuna layiq görüldü.

Aprelin 29-da həm də qrup hərəkətlərində final yarışları keçirildi. Finalçılar 5 halqa, 3 top və 2 iplə tamaşaçılar və hakimlər qarşısında çıxış etdilər. Qrup yarışlarında Azərbaycanı Ayşən Bayramova, Siyana Vasileva, Zeynəb Hümmətova, Aliyə Paşayeva və Diana Doman təmsil etdilər. Çoxnövçülük üzrə təsnifat yarışlarında 13 ölkənin yığması arasında mübarizə aparan komandamız 14,650 xalla səkkizinci yerdə qərarlaşmışdı. Komandamız iki gün ərzində çıxışlarının yekunlarına əsasən 31,800 xalla yeddinci yerə yüksəlməyi bacardı və finala adladı. Beləliklə, 5 halqa ilə çıxış edən bədii gimnastika üzrə milli komandamız Dünya kuboku yarışlarının finalından medalla ayrıldı. Komandamız gərgin keçən mübarizədə hakimlərdən 17.600 xal alaraq bürünc medal qazandılar. Bolqarıstan komandası 19,800 xalla birinci, İtaliya millisi 18,000 xalla ikinci yerdə qərarlaşdı.

Günün sonunda 2018-ci ildə üç top və iki iplə hərəkətlərdə Dünya kuboku yarışlarının qalibi olan İtaliya kollektivinə turnirin xüsusi mükafatı verildi. Mükafatı qalib komandaya Beynəlxalq Gimnastika Federasiyasının (BGF) hakimlər üzrə nümayəndəsi Kerolayn Hant təqdim etdi.

### Fərid Qayıbov: "Doğma divarlar arasında çıxış etmək ikiqat məsuliyyətlidir"

Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov aprelin 27-də, final yarışlarında bir gün əvvəl, Bakıda keçirilən Dünya kuboku yarışlarında idmançılarımın çıxışları ilə bağlı fikirlərini "Olimpiya dünyası" qəzeti ilə bölüşdü:

-Ölkəmiz 6-cı dəfə keçirilən bədii gimnastika üzrə Dünya kuboku yarışlarına ev sahibliyi edir. Qeyd edim ki, hər il dörd Dünya kuboku yarışı keçirilir. Azərbaycanda keçirilən bu yarış bu il sonuncudur. Demək olar ki, Bakıda keçirilən Dünya Kuboku yarışları ümumi bir finaldır. Bu turnirin sonunda əvvəlki Dünya Kuboku yarışlarında fərqlənmiş idmançılara Beynəlxalq Gimnastika Federasiyasının (FIG) kuboku təqdim olunacaq. "Ən yaxşı icra xalını toplamış" idmançı isə Azərbaycan Gimnastika Federasiyası tərəfindən "AGF Trophy" kuboku ilə təltif ediləcək. Bu mükafat artıq üçüncü ildir təqdim olunur.

Qonaqlarımız və iştirakçılar yarışların təşkilatçılıq səviyyəsindən çox razıdırlar. İdmançılarımızın çıxışlarına gəlincə, təmsilçilərimiz fərdi proqram üzrə çoxnövçülük yarışlarında çıxışlarını yekunlaşdırıblar. Veronika Hudis və Zöhrə Ağamirova hələ çox gəncdirlər, təcürbələri azdır. Bu, Veronika Hudis üçün ilk böyük yarışdır. Gimnastımız ilk dəfədir böyüklər arasında yarışlarda qüvvəsini sınyaır. Baş məşqçi Mariana Vasileva və məşqçilər korpusunun digər üzvləri də onların çıxışlarından razı qaldılar.

Qrup hərəkətləri yarışlarında çıxış edəcək komandamızın üzvləri daha təcrübəlidir və onlar beynəlxalq yarışlarda medallar qazanıblar. Təbii ki, onlar da çox həyəcanlıdırlar. Doğma divarlar arasında çıxış etmək ikiqat məsuliyyətlidir. İnanıram ki, onlar dünən ilk çıxışda finala vəsiqə qazandıqdan sonra daha inamla çıxış edəcəklər. Gimnastlarımızın sabah keçiriləcək final yarışlarında bizi sevindirəcəklərinə inanıram.

### Mariana Vasileva: "Qrup komandamız ümidləri doğrultdu"

Azərbaycanın bədii gimnastika üzrə yığma komandasının baş məşqçisi Mariana Vasileva Bakıda keçirilən Dünya kuboku yarışları barədə təəssüratlarından danışdı:

- Mən qızların çıxışlarından razıyam. Zöhrə Ağamirova və Veronika Hudis gəncdirlər, idman karyeralarına yeni başlayıblar. Ümid edirəm ki, qızlarımız sonrakı yarışlarda daha uğurla çıxış edəcəklər. Doğma divarlar arasında çıxış etmək hər zaman çətin və məsuliyyətlidir. Mən baş məşqçi kimi bunu qızlarımızda hiss edirəm. Zöhrə Ağamirovanı komandanın lideri kimi görürəm, ona etimadımız böyükdür. Sevinirəm ki, qrup komandamız ümidləri doğrultdu.

Azərbaycan Gimnastika Federasiyasına və azarkeşlərə dəstəyə görə minnətdarlığını bildirirəm. Yarışda iştirak edən əcnəbi gimnastlar və onların məşqçiləri Milli Gimnastika Arenasında təşkilatçılıq səviyyəsindən çox razıdırlar. Biz demək olar ki, hər həftə yeni turnirdə iştirak edirik. Mən istəmirəm ki, bu, lovğalıq kimi səslənsin, amma Azərbaycanda gimnastika üzrə turnirlərin təşkilatçılığı doğrudan da ən yüksək səviyyədədir. Biz əcnəbi dostlarımıza öz qonaqpərvərliyimizi və hörmətimizi nümayiş etdirməyə çalışırıq. Bizdə ab-hava gözəldir, azarkeşlər dəstəklərini əsirgəmirlər.

Azərbaycan Gimnastika Federasiyası həmişə olduğu kimi yenilikləri ilə valeh edir. Ölkəmizdə keçirilən batut gimnastikası, ikili mini batut və tamblinq üzrə XXVİ Avropa çempionatının maskotu olan "Qur-Qur"insanda gözəl təəssürat, şən əhval-ruhiyyə yaradır.

### "Azərbaycan Gimnastika Federasiyasında peşəkarlar çalışır"

"Bakıya ikinci dəfədir gəlirəm. Çox məmnunam ki, Azərbaycan Gimnastika Federasiyasında peşəkarlar çalışır".

Bu sözləri "Olimpiya dünyası" qəzetinə müsahibəsində Dünya kubokunun iştirakçısı ukraynalı idmançı Olena Dyaçenko deyib.

- Peşəkar insanların bizimlə işləməsi çox xoşuma gəlir. Onlar bizə kömək edir, nə lazım olub-olmadığını soruşurlar. Milli Gimnastika Arenası çox gözəldir. Açılış mərasimini də çox bəyəndim, keçən dəfəki kimi çox maraqlı oldu. Maskotların iştirak isə xüsuilə maraqlıdır. Azərbaycandan xoş təəssüratlarla ayrılırıq".

### "Unudulmaz təəssürat yaradır"

Dünya kuboku yarışlarının iştirakçısı, Yeni Zelandiya təmsilçisi Qreys Şreder yarışla, ölkəmizlə bağlı fikirlərini bölüşüb:

-Bakıda keçirilən beynəlxalq turnirlərin təşkilatçılıq səviyyəsinin yüksək olması gimnastlarda unudulmaz təəssürat yaradır.

Mən ilk dəfə Bakıda yarışda iştirak edirəm. Dünya kuboku yarışının yüksək təşkilatçılıq səviyyəsinə heyran qaldım. Burada bizim qalmağımız, məşqlərimiz üçün yaradılan şərait mükəmməldir. Bizim yarışdığımız Milli Gimnastika Arenasına isə söz yoxdur".

*Səadət Hakıyeva*

*Cüdo*

# Qara qitədə parlaq nəticə - 18 medal



Mərakeşdə yeniyetmə cüdoçular arasında Afrika kuboku uğrunda beynəlxalq turnir keçirilib. Azərbaycan cüdoçuları turnirdə 7-si qızıl, 7-si gümüş və 4-ü bürünc olmaqla 18 medal qazanıblar.

Oktyabrda Argentinada keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya xalları verən yarışda Vüsalə Kərimova (44 kq), Səbinə Əliyeva (48 kq), Mirağa Hacıyev (50 kq), Mətin Rzayev (60 kq), Kamran Novruzov (73 kq), Yaqub İsmayılzadə (90 kq), Toğrul Salmanov (+90 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar.

*Yelkənli idman*

Yelkənli İdman Federasiyasının “Laser” sinfi üzrə milli komandası Yunanıstanın Patra şəhərində keçirilən yelkənli qayıqların “Laser 4.7” sinfi üzrə Avropa çempionatında iştirak edib.

## Millimiz Avropa çempionatında iştirak edib

Yelkənçilərimizin ilk dəfə iştirak etdiyi bu yarışda Azərbaycan komandasına Yelkənli İdman Federasiyasının idman üzrə koordinatoru Burcu Algon Giorgianni rəhbərlik edib. Heyətin məşqçisi isə Tuğçe Subaşı olub.

Çempionatda Azərbaycanı yelkənçilərimiz Rafiq Orucov, Fərid Məmmədzadə və Ammar Hatim təmsil ediblər.



*Şahmat*

## Maqnus Karlsen “ShamkirChess” turnirinin üçqat qalibidir



***Mərhum qrossmeysterimiz Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess-2018” superturnirinə yekun vurulub. Turnirin sonuncu - IX turunda çinli Dinq Liren ilə qarşılaşmada heç-heçəyə razılaşan Maqnus Karlsen xallarının sayını 6-ya çatdıraraq “Shamkir Chess-2018”in qalibi olub.***

Sonuncu turda Azərbaycan təmsilçiləri Rauf Məmmədov və Şəhriyar Məmmədyarov qarşılaşıblar. Partiya 27-ci gedişdə sülhlə yekunlaşıb.

Qara fiqurlarla oynayan Teymur Rəcəbov isə rəqibi David Navara (Çexiya) ilə 23-cü gedişdə heç-heçəyə razılaşıb. Polşalı Radoslav Voytaşek isə hollandiyalı Aniş Qiri ilə qarşılaşmada xalları yarı bölüb.

Günün sonuncu başa çatan görüşü rusiyalı Sergey Karyakin ilə bolqarıstanlı Veselin Topalov arasında oynanılıb. Görüş Sergey Karyakinin qələbəsi ilə başa çatıb.

Beləliklə, doqquz turdan sonra hazırki dünya çempionu norveçli Maqnus Karlsen 6 xalla birinci yeri tutub. Dinq Liren 5,5 xalla ikinci, Sergey Karyakin 5 xalla üçüncü yeri tutub. Hər birinin aktivində 4,5 xal olan Şəhriyar Məmmədyarov, Radoslav Voytaşek, Aniş Qiri və Teymur Rəcəbov 4-7-ci yerləri bölüşüblər. Veselin Topalov və Rauf Məmmədov 4 xalla 8-9-cu yerləri bölüşüblər. Çexiyalı David Navara isə 2,5 xalla sonuncu pillədə qərarlaşıb.

*Güləş*

## Pəhləvanlarımız Avropa çempionatında mübarizə aparırlar

Rusiya Federasiyasının Kaspiysk şəhərində güləş üzrə böyüklər arasında Avropa çempionatına start verilib.

Aprelin 27-də Olimpiya Güləş Mərkəzində hazırlığı davam etdirən sərbəst güləş və qadın güləşi üzrə yığma komandanın mətbuat üçün açıq məşqi keçirilib. Məşqdən əvvəl AGF-nin 1-ci vitse-prezidenti, yığma komandanın baş məşqçisi Firdovsi Umudov, vitse-prezidentlər Maqomed Aliomarov və Namiq Abdullayev, baş katib Orxan Məmmədovun iştirakı ilə Avropa çempionatında iştirak edəcək yığmamızın heyəti açıqlanıb.

Sərbəst güləş üzrə komandamız baş məşqçi Firdovsi Umudovun rəhbərliyi altında yarışır. Ölkəmizi bu növdə Giorgi Edişeraşvili (57 kq), Mircəlal Həsənzadə (61 kq), Hacı Əliyev (65 kq), Murtazali Müslimov (70 kq), Coşqun Əzimov (74 kq), Cəbrayıl Həsənov (79 kq), Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov (92 kq), Nurməhəmməd Hacıyev (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) təmsil edir.

Avropa çempionatına yunan-Roma güləşçilərinin mübarizəsi ilə start verilib. Mayın 2-4-də qadın, 4-6-da sərbəst güləşçilər qüvvələrini sınayacaqlar.

Yarışda qadın güləşçilərimiz də iştirak edirlər. Zərif cinsin nümayəndələri qitə çempionatında baş məşqçi Aslan Ağayevin rəhbərliyi altında yarışırlar. Ölkəmizi bu yarışlarda Mariya Stadnik (50 kq), Anjela Doroqan (53 kq), Solmaz Həşimzadə (55 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (59 kq), Elmira Qəmbərova (62 kq), Elis Manolova (65 kq), İrina Netreba (68 kq) və Səbirə Əliyeva (76 kq) təmsil edirlər.

# Firdovsi Umudov: “Güləşçilərimizin hamısından medal gözləyirik”



***Olimpiya Güləş Mərkəzində təşkil olunan mətbuat üçün açıq məşq zamanı sərbəst güləş üzrə Azərbaycan milli komandasının baş məşqçisi Firdovsi Umudov media nümayəndələrinin suallarını cavablandırıb.***

***- Avropa çempionatından hansı nəticələri gözləyirsiniz?***

- Bu il təşkil olunan Azərbaycan çempionatından sonra komandamızı İranda beynəlxalq turnirdə və ABŞ-da Dünya kuboku yarışlarında sınaqdan çıxardıq. Dünya kubokuna Şərif Şərifov, Murtuzali Müslimov və Nurmaqomed Hacıyevi zədəli olduqları üçün apara bilmədik. İştirak etdiklərimiz yarışların nəticələrinə əsasən, Avropa çempionatı üçün heyətimizi müəyyənləşdirdik. Heyətdə gənclərə də üstünlük vermişik. Bunlar Murtuzali Muslimov və Nurmaqomed Hacıyevlə yanaşı, Mircəlal Həsənzadə və Coşqun Əzimovdur. Onlarla bərabər təcrübəli güləşçilərimiz də Dağıstana yollanacaqlar. Heyətimizdə Georgi Edişeraşvili, Hacı Əliyev, Cəbrayıl Həsənov, Şərif Şərifov və Cəmaləddin Məhəmmədov kimi nəticə vermiş pəhləvanlar da var. Bunların hamısı Avropa çempionatında öz sözlərini deməlidirlər.

***- Gənc güləşçilərdən nə gözləyirsiniz?***

- Onların xarakteri xalçada döyüşmələri, medal uğrunda mübarizə aparmaları bizi qane edir. Fikrimiz heyətdə onlara yer verməklə, gələcəkdə böyüklər arasında dünya çempionatına və yay Olimpiya Oyunlarına hazırlamaqdır. Dünya kubokunda elə güləşçilərimiz oldu ki, özlərini doğrulda bilmədikləri üçün Avropa çempionatındakı heyətə daxil edilmədilər.

***- Dünya kubokundan sonrakı qısa müddət ərzində Avropa çempionatı üçün pəhləvanlarımız tam forma yığmağa vaxt tapa bildilərmi?***

- ABŞ-dakı Dünya kuboku yarışlarına yollananda da bir gündən sonra idmançılarımız məşqlərdə özlərini yaxşı hiss etməyə başladılar. Qayıtdıqdan sonra isə bərpa prosesi də, hazırlıq da normal getdi. Hazırda təlim-məşq toplanışımız yüksək səviyyədə davam edir.

***- Hacı Əliyev 61 kq çəki dərəcəsində qarşısıalınmaz idi. Lakin 65 kq-a keçdikdən sonra hələ tam uyğunlaşa bilmədiyi görünür. Problem nədədir?***

- Dünya kuboku və beynəlxalq turnirlərdə 2 kq-dək artıq çəki ilə çıxış etməyə icazə var. Yəni, rəqiblərinin ondan 2 kq artıq çəkidə olması da özünü göstərir. İnanıram ki, Hacı Əliyev Avropa çempionatında özünü ən yaxşı tərəfdən göstərə biləcək. Doğrudur, güclü rəqibləri var. Güləşdə uduzmaq da, udmaq da olar. Lakin Hacı dünya reytinqli pəhləvandır. Hazırlıq prosesinə əsasən, deyə bilərəm ki, o, Dağıstanda öz sözünü deyəcək.

***- Coşqun Əzimov Dünya kuboku ilə müqayisədə, Avropa çempionatında 70 kq deyil, 74 kq-da çıxış edəcək. Bu, nə ilə əlaqədardır?***

- Qeyd etdiyim kimi, Dünya kubokunda 2 kq artıq çəki ilə çıxış etməyə icazə var idi. Yəni, o, 72 kq çəki ilə mübarizə aparmışdı. Normalda isə Coşqunun çəkisi 75 kq-dır. Ona görə də Avropa çempionatında 74 kq-da çıxış etməsini məqsədəuyğun saydıq.

***- Dopinq cəzasını başa vuran Toğrul Əsgərovun Avropa çempionatından kənarda qalması nə ilə əlaqədardır?***

- Toğrul hələ fiziki və psixoloji cəhətdən hazır deyil, formasını tam bərpa etməyib. Üstəlik, çəki məsələsi də var. 70 kq və 74 kq çəki dərəcələrindən hansına uyğun olduğuna baxacağıq. Toğrul Əsgərov yarışlara və məşq proseslərinə bir müddətlik ara vermişdi. Lakin artıq məşqlərini davam etdirir. Onu qarşıdakı turnirlərdə sınaqdan çıxaracağıq.

***- Avropa çempionatında əsas rəqibləriniz qismində hansı ölkələri görürsünüz?***

- Hər zaman demişəm ki, zəif rəqib olmur. Azərbaycan millisinin özü də kimlər üçünsə güclü rəqibdir. Bunu Dünya kuboku da, ötənilki yarışlar da göstərdi. Heyətimizdə yetərincə güclü güləşçilər var. Hər biri titullu pəhləvanlardır, çoxsaylı nəticələri var. Onların hamısından medal gözləmək olar. Normal hazırlıq keçiblər. İnanırıq ki, lazımi nəticəni də qazanacaqlar.

***- Hakimlərin və dağıstanlı azarkeşlərin təzyiqlərinə psixoloji cəhətdən hazırsınızmı?***

- Bütün yarışlarda olduğu kimi bu səfər də hazırıq. Proqnoz verməyi xoşlamıram, lakin sürprizlər gözlənilir. İstər yunan-Roma güləşində, istərsə də kişi və qadınların sərbəst güləş yarışlarında. Daha çox yunan-Roma və qadın güləşində gənclərə üstünlük verilib. Avropa çempionatında güləşçilərimizdən yaxşı nəticələr gözləyirik.

***Səadət Hakıyeva***

*Həndbol*

# “Bakı”nın qızıl dublu

Həndbol üzrə Azərbaycan çempionatında mövsümə yekun vurulub.

Aprelin 29-da kişilərin çempionatında da həlledici görüşlər olub.

Pley-off mərhələsinin həlledici oyunlarında qalib və mükafatçıların adlarına aydınlıq gəlib. Daha böyük maraqla gözlənilən “Məhsul” - “Bakı” matçı gərgin mübarizə şəraitində keçib. Qızıl medallara iddialı rəqiblərin oyununda əsas vaxt 32:32 hesabı ilə bitdiyindən qalib penaltilər seriyasında müəyyənləşib. Yeddi metrlik zərbələri daha dəqiq yerinə yetirən “Bakı” 35:32 hesablı qələbə ilə Azərbaycan çempionu adına sahib çıxıb.

Digər qarşılaşmada “Təhsil” komandası Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin (RİOEUGİM) yetirmələrini 45:28 hesabı ilə asanlıqla məğlub edərək bürünc medala yiyələnib.

Fəxri kürsüyə qalxan komandalara, həmçinin fərdi nominasiyalar üzrə fərqlənən idmançılara federasiyanın fəxri diplom və mükafatları təqdim olunub.

Qeyd edək ki, Elnur Cahangirov (“Bakı”) və Yelizaveta Hilyazəddinova (“Azəryol”) “Ən yaxşı qapıçı”, Dmitri Çapligin (“Təhsil”) və Valentina Yankovskaya (“Azərsu”) “Ən yaxşı oyunçu “nominasiyası üzrə fərqləniblər.

Çempionatın bağlanış mərasimində çıxış edən Azərbaycan Həndbol Federasiyasının vitse -prezidenti Orxan Abbasov ölkəmizdə idmana göstərilən yüksək dövlət qayğısından söz açaraq beynəlxalq arenalarda qazanılan uğurları məhz bunun məntiqi nəticəsi kimi qiymətləndirib. 24-cü ölkə çempionatı ilə müqayisədə başa çatan mövsümün daha gərgin və maraqlı mübarizə ilə yadda qaldığını deyən Orxan Abbasov, növbəti çempionata yeni komandaların qatılması və rəqabətin yüksəldilməsi üçün bütün qüvvələrin səfərbər olunacağını bildirib.

Həndbol üzrə 25-ci Azərbaycan çempionatında 6 qadın, 4 kişi komandası qələbə uğrunda mübarizə aparıb. Ötən il oktyabrın 17-də start verilən yarışlarda, ümumilikdə, 84 oyun keçirilib.

Qeyd edək ki, “Bakı” həm ölkə çempionatında, həm də Azərbaycan kuboku uğrunda yarışlarda qalib gələrək qızıl dubla imza atıb. Belə ki, martın 8-də keçirilmiş həndbol üzrə Azərbaycan kuboku turnirinin finalında “Məhsul” həndbolçularını 34:28 hesabı ilə məğlubiyyətə uğradan paytaxtın eyniadlı təmsilçisi turnirin əsas mükafatına layiq görülüb.

* * *

Qadın həndbolçular arasında Azərbaycan çempionatına yekun vurulub. Son oyun günündə “Azərsu” “İdman Akademiyası”na 45:24, “Qarabağ” isə “Gənclər Birliyi”nə 37:23 hesabı ilə qalib gəlib.

Xatırladaq ki, turun mərkəzi qarşılaşmasında Mingəçevirin “Nur” komandası “Azəryol”u 27:24 hesabı ilə məğlub edib.

Beləliklə, bu nəticələrdən sonra aktivində 31 xal olan “Azərsu” həndbolçuları çempionluğu bayram ediblər. Liderdən 3 xal geri qalan “Azəryol” çempionatın gümüş medallarına sahib olub. “Nur” 27 xalla yarışı üçüncü pillədə bitirib. Dördüncü yerin sahibi “Qarabağ” mövsüm ərzində 25 xal toplaya bilib. Autsayderlər “Gənclər Birliyi” və “İdman Akademiyası” isə hərəyə cəmi 4 xalla beşinci-altıncı pillələrdə qərarlaşıblar.

* * *

Ölkə tarixində idman oyunlarında ilk dəfə olaraq, Azərbaycan Həndbol Federasiyasının Beynəlxalq dərəcəli hakimləri Vagif Əliyev və Ələkbər Agakişiyev Avropa Həndbol Federasiyasının qadınlar arasında keçiriləcək Challenge Cup yarışına təyinat alıblar. Mayın 13-də keçiriləcək kubokun MKS Perla Lublin (Polşa) və Rocasa Gran Canaria (İspaniya) komandalarının final oyununu Azərbaycan hakimləri idarə edəcəklər.

Qeyd edək ki, V.Əliyev və Ə.Ağakişiyev uzun müddət ölkə klubları və milli komandada hənbolçu kimi fəaliyyət göstəriblər. Hazırda V. Əliyev Milli Olimpiya Komitəsinin əməkdaşı, Ə.Ağakişiyev AZHF-nin hakimlər kollegiyasının sədridir. Onlar 2002-ci ildən Avropa Həndbol Federasiyasının hakimləridirlər. Bu günə qədər 6 dəfə gənclər arasında Avropa çempionatının final mərhələlərində, 7 dəfə AHF-nın Çempionlar Liqasının qrup və yarımfinal, tələbələr arasında dünya çempionatının final, AHF və Challenge Cup kuboklarının seçmə və yarımfinal, Avropa və dünya çempionatlarının çoxlu sayda seçmə, beynəlxalq yoldaşlıq görüşləri, Gürcüstan, Rusiya və Azərbaycan Çempionatının oyunlarını idarə ediblər.

50 ölkədən 300-ə yaxın hakimlər cütlüyünü təmsil edən Avropa Həndbol Federasiyasının belə bir oyunu Azərbaycan hakimlərinə həvalə edilməsi çox fərəhli haldır. Yarışın qaydalarına görə oyun zamanı hakimlərin də təmsil etdiyi ölkənin bayrağı ucaldılır. 20 min tamaşaçısı olan idman sarayında final oyununu hakimlik etmək üçün böyük təcrübə və yüksək ustalıq lazımdır. Bütün bu keyfiyyətlər bizim hakimlərimizdə var.

Ümid edirik ki, hakimlərimiz bu matçı yüksək ustalıq, ədalətli və qürur hissi ilə idarə edəcəklər.

Məlumat üçün qeyd edək ki, final oyununa Avropa Həndbol Federasiyasının nümayəndələri Ole R. Jorstad (Norveç) və Olimpiya Çempionu Lyudmila Bobniyeva (Rusiya) təyin olunublar. Challenge Cup kuboku Avropa Həndbol Federasiyasının təsis etdiyi 3 kubok yarışlarından biridir.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Uşaq və gənclərin sağlamlığı diqqət mərkəzindədir

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

***Şübhəsiz ki, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə fəal iştirak edir, uğurlar qazanırlar.***



Ölkə əhalisinin sağlamlığı, uşaq və gənclərin sağlam həyat tərzi keçirmələri, onların fiziki və mənəvi inkişafı müasir dövrümüzdə dövlətin inkişafını, xoşbəxt gələcəyini əsaslandıran amillərdəndir. Sağlamlıq insana məxsus olsa da, eyni zamanda, dövlətin, cəmiyyətin mülkiyyəti hesab olunur. Millətin sağlamlığı, həm də onun mədəniyyəti ilə ölçülür. Bunu yaddan çıxarmaq olmaz. Təbii ki, hər bir millətin gələcəyi uşaqlara və gənclərə bağlıdır. Onların sağlamlığının mühafizəsi, həm də genofondun qorunması deməkdir. Gəlin etiraf edək ki, sağlamlıq təbiətin bizə bəxş etdiyi hədiyyədir və onu uşaq, gənc yaşlarından qorumaq lazımdır. Bunun üçün ən yaxşı vasitə isə idman və bədən tərbiyəsidir. Dərindən düşünəndə, görürsən ki, idman insanın həyatının önəmli bir hissəsidir. Fiziki hərəkət, bədən tərbiyəsi adamı güclü, dözümlü edir, orqanizmi möhkəmləndirir. Əbəs yerə deməyiblər ki, sağlam bədəndə sağlam ruh olar. İdmanla məşğul olmaq əhval-ruhiyyəni qaldırır, böyük sevinc bəxş edir. İdman, həm də tərbiyə edir. Uşaq və gənclər, eləcə də müxtəlif yaşda insanlar məşğul olduqları idman bölmələrində, klublarda, cəmiyyətlərdə dostlaşır, bir-biri ilə ünsiyyət qururlar. Psixoloqların gəldiyi qənaətə görə, yalnız mənən güclü insanlar dostluq əmək qabiliyyətinə malikdirlər. İdman insanları təkcə fiziki cəhətdən deyil, həm də mənəvi cəhətdən kamilləşdirir. İnsanın mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi və yüksək səviyyədə inkişafı gənc nəslin mənəvi saflığını təmin edir. Bir sözlə, “Hərəkət-həyatdır” sözləri hər bir insanın, vətəndaşın devizinə çevrilməlidir.

Mübaliğəsiz demək olar ki, gənclik dövrü insan həyatının ən gözəl çağıdır. Məhz bu çağları yaşayanların həyata baxışı dəyişir, qurub-yaratmaq eşqi qəlblərdə baş qaldırır. Böyük həvəslə, inamla irəli atılan gəncləri həyatın çətinlikləri, keşməkeşli yolları qorxutmur. Əksinə, gəncliyin bəxş etdiyi enerjidən güc alanlar öz arzu və istəklərini həyata keçirməyin yollarını aramaqdan usanmırlar. Gənclik, həm də qayğıya böyük ehtiyac duyulduğu bir dövrdür: qayğı göstərilməsə, gəncliyin eşqi sönər, ülvi arzular gerçəkləşməz. İnamla deyə bilərik ki, Azərbaycanın gənc nəsli dövlərimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub.

Ümummilli lider, Heydər Əliyevin arzularından biri də hər bir Azərbaycan vətəndaşının bədən tərbiyəsi və idmanla məşğul olması idi. Müdrik rəhbər deyirdi: “Bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını - həm fiziki, həm də mənəvi, əqli sağlamlığını təmin etməkdir”. Dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə idman öz yüksəliş və intibah dövrünü yaşayır.

## İdmana göstərilən qayğı ilə, həm də sağlam həyat tərzi təbliğ edilir

“Uşaqsız ev susuz dəyirmana bənzəyir”, - deyib ata-babalarımız. Ailənin təməlinin möhkəm qoyulmasında, iki insan - qadın və kişi arasında bağlanan nigahın uzunömürlü olmasında, sözsüz ki, ailədə doğulan körpənin də əvəzsiz rolu var. Təcrübələr göstərir ki, uşaqsız ailələrin ömrü adətən, o qədər də uzun olmur. Körpə gülüşü ata-anaya sevinc bəxş edir, onları yaşamağa ruhlandırır, ailəyə xoşbəxtlik gətirir. Valideyn ağır iş günündən sonra nə qədər yoğun olursa olsun, körpəsinin baxışlarına təbəssümlə cavab verir, onun qayğıları ilə maraqlanır. Bu, valideynin mənəvi rahatlığına səbəb olur.

“Kiçik dövlət” sayılan ailənin sağlam, fiziki cəhətdən gümrah, mənəvi cəhətdən kamil olması günümüzün vacib məsələlərindəndir. Bu vacib məsələnin həlli üçün ilk növbədə, ailə, bağça, məktəb, ali təhsil ocaqları, ümumilikdə bütün cəmiyyət var-qüvvəsini səfərbər edir. Uşaqları kiçik yaşlarından düzgün tərbiyə etmək, onların əqli və fiziki imkanlarını yüksək səviyyədə inkişaf etdirmək, gələcəkdə vətənə, xalqa layiq övlad kimi yetişdirmək ən vacib amildir. Uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsi, onların inkişafına göstərilən diqqət, gənc nəslin üzləşdiyi problemlərin həlli istiqamətində atılan məqsədyönlü addımlar, gördüyü tədbirlər dövlətimizin əsas prioritet vəzifələrindəndir.

Yuxarıda qeyd etdiyimiz kimi, yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində, intellektual və mədəni səviyyəsinin yüksəldilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində, əməyə, vətənin müdafiəsinə hazır olan mərd, cəsur insanlar kimi yetişməsində idmanın rolu əvəzsizdir. Gənclərin fiziki və mənəvi tərbiyəsində müstəsna rol oynayan bədən tərbiyəsi və idmanın inkişafını daha da sürətləndirmək, bu sahədə kütləviliyi təmin etmək üçün Azərbaycanda məqsədyönlü və hərtərəfli işlər görülür. Təbii ki, idmanın inkişafı, həm də sağlam həyat tərzinin təbliğinə xidmət edir.

“Sağlam millət, sağlam gələcək” deməkdir. Azərbaycan dövləti sağlam gələcəyinin təminatçısıdır. Bu baxımdan deyə bilərik ki, paytaxt və bölgələrdə tikilib istifadəyə verilən Olimpiya idman kompleksləri, idman zalları, stadionlar Azərbaycan xalqının sağlamlığına xidmət edir. Bu cür idman qurğuları həm də Azərbaycanın idman ölkəsi kimi uğurlarında əhəmiyyətli rol oynayır. Ölkəmizdə fəaliyyət göstərən Milli Gimnastika Arenası, Su İdmanı Mərkəzi, Bakı Olimpiya Stadionu, Bakı İdman Sarayı, Heydər Əliyev adına İdman-Konsert Kompleksi gözəl memarlıq inciləri olmaqla bərabər, həm də beynəlxalq standartlara cavab verən idman qurğularıdır. Bu göstəricilər ölkəmizin beynəlxalq yarışların mərkəzinə çevrilməsinin bir təsadüf olmadığını bir daha təsdiqləyir. Bu səbəbdən beynəlxalq idman qurumları mötəbər yarışları Azərbaycana həvalə edir. Çünki bu qurumlar yaxşı bilirlər ki, ölkəmiz belə tədbirlərin təşkilində kifayət qədər təcrübəyə malikdir. Təkcə onu demək kifayətdir ki, bu ilin mart-aprel ayında Azərbaycanda 4 mötəbər yarış keçirilib. Bunlar idman gimnastikası üzrə Dünya kuboku (15-18 mart), batut gimnastikası, tamblinq və ikili-mini batut üzrə Avropa çempionatı (12-15 aprel), bədii gimnastika üzrə “AGF Junior Trophy” adlı beynəlxalq turnir (23-24 aprel), bədii gimnastika üzrə Dünya kuboku (27-29 aprel) və ölkəmizdə artıq 4-cü dəfədir təşkil edilən Formula-1 Qran-pri (27-29 aprel) yarışlarıdır. Ölkəmizdə olan qonaqlar, yarış iştirakçıları təşkilatçılığın yüksək səviyyəsindən, insanlarımızın qonaqpərvərliyindən razı qalırlar. Belə tədbirlərin təşkili həm də Azərbaycanın dünya miqyasında tanınmasında böyük rol oynayır.

## İdmanda gənclər əksəriyyət təşkil edir

Dörd ildən bir keçirilən və möhtəşəmliyi, səviyyəsinə görə digər yarışlardan fərqlənən Olimpiya oyunlarında idmançılarımızın əldə etdiyi nəticələr, qazandıqları uğurlar ürəkaçan və sevindiricidir. Atletlərimizin olimpiadalarda nailiyyətləri öz ardıcıllığını hər zaman qoruyub. Tarixə nəzər salsaq görərik ki, 1996-cı ildən müstəqil ölkə kimi Olimpiya Oyunlarında iştirak edən Azərbaycan idmançıları qısa zaman ərzində yüksək uğurlara imza atıblar. Azərbaycan təmsilçiləri indiyədək keçirilən Olimpiya Oyunlarında ümumilikdə 26 medal əldə ediblər. Xüsusu vurğulayaq ki, ölkəmizi bu mötəbər yarışlarda təmsil və bizə qələbə sevinci bəxş edən idmançıların əksəriyyəti gənclərdir. Bu, Azərbaycan dövlətinin gənc nəslə göstərdiyi qayğının, gənclər üçün yaratdığı şəraitin bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq yarışlardan sonra idmançıları və məşqçiləri qəbul edərək onları mükafatlandırır. Bu, dövlət başçısının Azərbaycan idmanına, gəncliyinə diqqət və qayğısının bariz nümunəsidir.

Azərbaycanın yeniyetmə idmançıları da mötəbər tədbirlərdə uğurlu çıxış ediblər. Yeniyetmələrin yay Olimpiya oyunlarında mübarizə aparan idmançılarımız vətənə medallarla qayıdıblar. Statistikaya nəzər salanda görürük ki, təmsilçilərimiz 2010-cu ildə Sinqapurda keçirilən Yenyetmələrin I Yay Olimpiya Oyunlarında 8 (5 qızıl, 3 gümüş) medal qazanmaqla ölkəmizi dünya ölkələri sırasında 11-ci ediblər. Çinin Nankin şəhərində (2014) təşkil edilən Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında isə yeniyetmə atletlərimizin qazandıqları 12 (5 qızıl, 6 gümüş və 1 bürünc) medal ölkəmizi 204 iştirakçı ölkə arasında 10-cu yerə yüksəldib. Azərbaycanın yeniyetmələrdən ibarət komandası Avropa ölkələri arasında 6-cı, MDB-də Rusiya və Ukraynadan sonra 3-cü, İslam və Qafqaz ölkələri arasında 1-ci pillədə yer alıb. Bu nəticələr ölkəmizdə yeniyetmələrin də idmana sıx şəkildə bağlandığının, onların bu sahədə peşəkarlığının bariz göstəricisidir. Yeniyetmə və gənclərimiz Namiq Abdullayev, Fərid Mansurov, Toğrul Əsgərov, Elnur Məmmədli, Hacı Əliyev, Zabit Səmədov kimi idmançılardan öyrənir, onlardan nümunə götürürlər.

## Uşaqların da maraqları, arzuları nəzərə alınmalıdır

Biz həmişə uşaqların erkən inkişafının faydası haqqında danışırıq. Lakin istənilən hər bir prosesin əks tərəfi də vardır. Bəzi valideynlər uşağı həddindən artıq yükləyərək, ona hər şeyi erkən yaşdan başa salmağa çalışırlar. Məsələn, ana yaş yarımlıq körpəsinə güllərin rəngini (yaşıl, qırmızı, sarı və s.) anlatmağa çalışır. Görəsən, buna lüzum vardırmı? Axı o, hələ balacadır, hətta normal danışmağı da bacarmır. Dəfələrlə şahidi olduğum bir məqamı diqqətə çatdırmaq istəyirəm. Adətən, analar bir yerə yığışanda dilboğaza qoymadan övladlarının müəyyən bacarıq və vərdişlərindən danışır, özlərini yaxşı, nümunəvi valideyn hesab edərək qürrələnirlər (məsələn, “mənim uşağım musiqi məktəbinə gedir”, “rəsm dərnəyinə yazılıb”, “idmanla məşğul olur” və s.). Bununla analar, əslində, övladları ilə deyil, özləri ilə qürrələnir və özlərini ətrafdakılardan üstün tutmaq istəyirlər. Etiraf edəkz ki, son vaxtlar bu, sanki, dəb halını alıb. Valideynlər bəzən azyaşlı uşaqları özləri ilə hara gəldi aparırlar - musiqi məktəbi, rəqs dərnəyi, idman, təsviri sənət məktəbi və s. Bu cür valideynlər uşağın qulağının dibində “lazımdır, lazımdır!” sözlərini təkrar etməkdən yorulmurlar. Bütün bunlar uşağa məcburən, zorla tətbiq edildiyi üçün onun getdikcə bu dərslərə marağı azalır və həvəsdən düşür.

Gəlin etiraf edək ki, uşağın erkən inkişafı, əsasən, biz, valideynlərin maraq dairəsindədir. Yəni hər bir valideyn öz uşağının daha tez böyüməsinə, mənəvi və fiziki inkişafına, savadlı, hərtərəfli olmasına “tələsir”. Əslində, bu, uşaqlara lazım deyil. Çünki orqanizmin özünün qanunauyğun fizioloji inkişaf prisesi vardır. Bəzən valideynlər bu məsələyə o qədər aludə olurlar ki, hətta uşağın özünü belə yaddan çıxarırlar. Bəs əslində, uşağın arzusu nədir, o nə istəyir? Bu kimi suallar bir çox valideyni maraqlandırmır. Ən pis cəhət isə odur ki, bəziləri başqasının uşağını öz övladına nümunə göstərərək: “Bax, görürsən, o səndən daha yaxşıdır, ağıllıdır”, - deməklə, öz övladının əsəbi və gərgin olmasına şərait yaradırlar. Araşdırmalar göstərir ki, bu cür tənbeh edilən uşaqlarda özünə inamsızlıq, laqeydlik hissi yaranır.

Öz övladının qayğısına qalmaq istəyən, onun gələcəkdə şəxsiyyət kimi formalaşmasına çalışan valideynləri (xüsusən də, anaları) bir sual düşündürməlidir: “Mən övladıma kifayət qədər vaxt ayıra bilirəmmi? Ona kifayət qədər qayğı göstərirəmmi?” Araşdırmalar göstərir ki, bu suala “bəli” deyənlərin sayı o qədər də çox deyil. Adətən, anaların əksəriyyəti ev işlərinə daha çox aludə olur. Uşaq ona yaxınlaşıb nəsə soruşanda isə başlarından etməklə, “vaxtım yoxdur, əl çək”, - deyərək özlərindən uzaqlaşdırırlar.

Mütəxəssislər uşağın mənəvi inkişaf prosesinin böyük əhəmiyyət daşıdığını bildirirlər. Çünki onun gələcəkdə necə insan (xeyirxah, səmimi, başqasının fikirlərinə hörmət edən) olması, cəmiyyətə xeyirli bir fərd kimi yetişməsi, kamil bir insan kimi formalaşmasında bu prosesin rolu danılmazdır. Həyat təcrübəsi göstərir ki, insana elmi, ensiklopedik biliklərdən başqa, həyatda çətinliklərə dözmək, qarşıya çıxan maneələrdən keçə bilmək üçün təcrübə, dözüm, iradə kimi yüksək keyfiyyətlər də lazımdır. Psixoloqlar sübut edirlər ki, əksər valideynlər uşaqlarını “dar çərçivə”də saxlayırlar. Nəticədə, yeniyetmə yetkinlik dövründə bu çərçivədə sıxılır və bundan uzaqlaşmağa çalışır. Uşağın keçirdiyi sıxıntılar onunla valideynləri arasında fikir ayrılığına gətirib çıxarır. Nəticədə, valideyn-övlad münasibətləri pozulur. Münasibətlərin bu şəkildə pozulması isə ağır fəsadlara və xoşagəlməz hallara yol aça bilər.

## Mənəvi tərbiyəni insan necə qazanır?

İnsan həyatda müəyyən uğur qazanmaq və karyera əldə etmək üçün həm də yüksək mənəvi və insani keyfiyyətlərə malik olmalıdır. Yumor hissi, insanlarla qaynayıb-qarışmaq, cəldlik, diqqətlilik, sayıqlıq və s. kimi keyfiyyətlər insanın cəmiyyətdə müvafiq mövqe və yer tutmasına əlverişli şərait yaradır.

Uşaqlara yalnız ensklopedik, elmi biliklərin verilməsi həyat təcrübəsinə ziddir. Vacib deyil ki, uşaq 3 və ya 5 yaşında əlifbanı öyrənsin. Bilmədiyini uşaq bağçasında və ya orta məktəbdə, onsuz da, ona öyrədəcəklər. Amma mənəvi və əxlaqi keyfiyyətlərlə bağlı dərs proqram şəklində heç bir yerdə keçilmir. Təbii ki, orta məktəblərdə bu məsələyə ciddi yanaşılır. Bununla belə, bütün şagirdləri mənəvi və əxlaqi cəhətdən yetkin formaya salmaq mümkün deyil. Bu məsələdə insanın genetik dəyərləri, ailədə aldığı tərbiyə önəmli amildir. Mənəviyyat və əxlaqla bağlı söhbətlərə uşaqları lap kiçik yaşlarından cəlb etmək lazımdır. Gözəlliyi qiymətləndirmək, insani münasibətlərə dəyər vermək, başqalarının halına yanmaq, xeyirxahlıq etmək kimi müsbət keyfiyyətlərin uşaqlara aşılanması onların vətənə, xalqa, millətə layiq vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır.

## Torpaq, əgər uğrunda ölən varsa, vətəndir!

Bu gün qayğısız böyüyən uşaqlarımız, gənclərimiz sabah Vətənin, millətin, xalqın gələcəyi üçün cavabdehlik ruhunda tərbiyə olunmalıdırlar və olunurlar. Gənc nəsil yaşadığı torpağın, vətəndaşı olduğu ölkənin mənafeyini müdafiə etməyə borcludur. Azərbaycan xalqı sinəsini vətən üçün güllə qabağına verən igidlərini, canını torpaq yolunda fəda edən qəhrəmanlarını unutmur. Xalqımız Əlif Hacıyev, Mübariz İbrahimov, Raquf Orucov və yüzlərlə belə şəhidləri ilə fəxr edir. Vətəni sevmək azdır, onu qorumaq lazımdır. Bu, hər birimizin borcudur.

Azərbaycanın hər qarışı sərvətdir və bu da düşmənlərimizi həmişə narahat edib. Azərbaycan - Odlar diyarı, hər qarışı uğrunda şəhidlər verən milyonların ana yurdudur! Biz, azərbaycanlılar tarixin kəhkaşanlı döyüş səhnəsində qalib gəlmiş, məğlubedilməz qəhrəmanlar nəslinin yetirmələriyik. Azərbaycan ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin, İkinci Dünya Müharibəsinin qələbəsində mühüm rol oynayan qırıcı təyyarələr üçün keyfiyyətli yüksək oktanlı benzin kəşf edən akademik Yusif Məmmədəliyevin, dünya elminin inqilabı hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsinin, informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoyan “Z-çevirmə” nəzəriyyəsinin banisi Lütfi Zadənin vətənidir. Biz həmin o azərbaycanlılarıq ki, dünya ədəbiyyatı xəzinəsinə Nizami, Füzuli, Sabir, Mirzə Cəlil və adları saydıqca bitib tükənmək bilməyən dahilər, sənət adamları bəxş etmişik.

Hamımız tez-tez vacibliyi vurğulanan “Vətəni sevmək, vətəni qorumaq” kimi ifadələr eşidirik. Əlbəttə, “Vətəni sevmək imandandır” buyurmuş müqəddəs Peyğəmbərimiz. Amma vətən məhəbbəti vətənə qarşı olan sevgi etirafı ilə kifayətlənmir. Türk torpağının övladı Midhad Camal Quntayın dediyi kimi:

Bayraqları bayraq yapan üstündəki qandır;
Torpaq, əgər uğrunda ölən varsa, vətəndir!

Azərbaycan dövlətinin əsas ideologiyalarından biri kimi uşaq və gənclərin fiziki və mənəvi inkişafı, onlara göstərilən əvəzsiz qayğı ölkəmizin, millətimizin gələcəyi olan nəslin güclü xarakterə, sağlam ruha malik olmasında başlıca rol oynayır. Gənc nəslin fiziki inkişafı, mənəvi dəyərlərlə zəngin olan firavan həyat sürməsi üçün dövlətimiz tərəfindən görülən işlər belə deməyə əsas verir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# A p r e l ayının yekunu Olimpiya dünyası -nın təqdimatında

## Gimnastika

Budapeştdə bədii gimnastika üzrə VI Beynəlxalq “Bahar kuboku - 2018” turniri keçirilib. Yarışda 17 ölkədən 43 idman klubunun heyətində 380 gimnast mübarizə aparıb.

Həmyerlimiz yeddi yaşlı Mina Abbasova çoxnövçülük yarışında yalnız ukraynalı rəqibindən geri qalaraq ikinci yeri tutub. O, həmçinin alətsiz və halqa ilə hərəkətlərdə də ikinci pillədə qərarlaşıb. Beləliklə, Mina Abbasova turnirdə üç gümüş medal qazanmağa müvəffəq olub.

* * *

Kişilərdən ibarət idman gimnastikası üzrə yığma komandamızın təmsilçiləri Anar Həsənov və Aydın Əlizadə Belarusun Mogilyov şəhərində beynəlxalq turnirdə beş medal qazanıblar.

Yeniyetmələr arasında mübarizədə gimnastımız A.Əlizadə altı alət arasında hərəkətlərinin cəminə görə ən yüksək pillədə qərarlaşıb. Aydın Əlizadə sərbəst hərəkətlərdə də gümüş medal əldə edib. Bu alətdə qızıl medala isə digər həmyerlimiz Anar Həsənov layiq görülüb. A.Həsənovun paralel qollardakı çıxışındakı hərəkətləri də ona qızıl medal qazandırıb. Dəstəli at üzərindəki çıxışına görə isə idmançımız ikinci pillədə qərarlaşıb.

* * *

Azərbaycanın bədii gimnastika üzrə yığma komandasının gənc üzvləri Nərminə Səmədova və Nərmin Bayramova Polşanın paytaxtı Varşavada keçirilən “İrina Cup” yarışlarında uğurla çıxış ediblər. Gənclər arasında mübarizə aparan gimnastımız N.Səmədova bütün alətlər üzrə xalların cəminə əsasən, çoxnövçülükdə gümüş medal əldə edib.

Digər təmsilçimiz N.Bayramova isə yeniyetmələr arasında halqa ilə hərəkətlərdə komandamızın hesabına ikinci gümüş medalı yazdırıb.

* * *

Milli Gimnastika Arenasında batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı keçirilib. Həm böyüklər, həm də gənclər arasında təşkil olunan çempionatda 25 ölkədən 400-dən çox idmançı mübarizə aparıb.









Dörd gün davam edən Avropa çempionatında Azərbaycan gimnastları bir qızıl və iki gümüş medal qazanıblar.

Oğlanlar arasında tamblinq yarışında təmsilçimiz Mixail Malkin 77,400 xal toplayaraq Avropa çempionu olub.

Qadınlar arasında batut gimnastikası üzrə yarışlarda isə təmsilçilərimiz Veronika Zemlyanaya və Svetlana Makştarova cütlüyü gümüş medala layiq görülüblər.

* * *

Almaniyanın paytaxtı Berlində gənclər arasında idman gimnastikası üzrə beynəlxalq turnir keçirilib. Yığma komandamız 23 ölkə arasında fərqlənməyi bacarıb. Belə ki, millimizin üzvü Səməd Məmmədli iştirak etdiyi 3 final mərhələsinin ikisində yüksək nəticə göstərərək qızıl medala sahib olub. Təmsilçimiz dəstəli at üzərində hərəkətlərinə görə, 12.850 xalla, paralel qollarda isə 13.250 xalla birinciliyi əldə edib.

Turnikdə çıxışına görə, S.Məmmədli hakimlərdən 11.150 xal alaraq 4-cü yerdə qərarlaşıb.

* * *

Milli Gimnastika Arenasında 2003-2005-ci illər təvəllüdlü qızlar arasında “AGF Junior Trophy” beynəlxalq bədii gimnastika turniri keçirilib. Azərbaycan təmsilçiləri turniri 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurublar. Ölkəmizə birinciliyi lentlə çıxışlarda Arzu Cəlilova (15,850 xal), topla hərəkətlərdə Nərminə Səmədova (16,050 xal), halqa ilə yarışlarda isə Dərya Farşbafşəhriyari (15,600 xal) qazandırıb. Gürzlərlə mübarizədə isə Arzu Cəlilova 14,900 xal toplayaraq altıncı yerlə kifayətlənməli olub.

2003-2005-ci illər təvəllüdlü qızlardan ibarət komanda yarışlarında Azərbaycan yığması 89,250 xal toplayaraq turnirin bürünc medalına layiq görülüb. Azərbaycanın ikinci komandası isə 88,300 xalla beşinci olub.

## Cüdo

Türkiyənin Antalya şəhərində keçirilən Qran-pri turniri Azərbaycan cüdoçuları üçün uğurlu nəticələrlə yadda qalıb. 50 ölkədən 316 cüdoçunun mübarizə apardığı beynəlxalq turnirdə Hidayət Heydərov millimizin aktivinə bürünc medal yazdırıb.

Yarışda 100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Zelim Kotsoyev isə bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb. Milli komandamızın daha iki üzvü beynəlxalq yarışın sonuncu günü medal qazanıb. 90 kq çəki dərəcəsində Məmmədəli Mehdiyev və Tural Səfquliyev bürünc medala layiq görülüblər.

* * *

Almaniyanın paytaxtı Berlində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışı keçirilib. Beynəlxalq turnirin ilk günü Azərbaycan milli komandasının üzvü Mirağa Hacıyev gümüş medal qazanıb. Yarışın sonuncu günündə cüdoçularımız Avropa kubokunda daha 2 medal qazanıblar. 90 kq çəki dərəcəsində yarışan Yaqub İsmayılzadə bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. +90 kq çəki dərəcəsində mübarizə aparan Toğrul Salmanov Berlində bürünc medala layiq görülüb.

* * *

“Sərhədçi” İdman Olimpiya Kompleksində Türk Şurası Universitet İdman Oyunlarının proqramına daxil olan cüdo yarışları keçirilib.

İki gün davam edən mötəbər yarışda Azərbaycan, Türkiyə və Qazaxıstan cüdoçuları medallar uğrunda mübarizə aparıblar.

Milli komandamızdan Kəramət Hüseynov (60 kq), İlkin Babazadə (66 kq), Telman Vəliyev (73 kq), Fəqan Quluzadə (81 kq), Firudin Dadaşov (90 kq), Cəlil Şükürov +100 kq), Aişə Qurbanlı (48 kq), Günel Həsənli (78 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə ediblər.

Yarışın ikinci günü Azərbaycan, Türkiyə və Qazaxıstan cüdoçuları komanda şəklində qüvvəsini sınayıb.

Beynəlxalq turnirdə Türkiyə cüdoçuları birinci yeri tutublar. Azərbaycan cüdoçuları isə ikinci olublar.

* * *

İtaliyanın Liqnano şəhərində gənclər arasında Avropa kuboku yarışı keçirilib. Cüdoçularımız beynəlxalq turnirdə 6 medal qazanıblar. Yarışda 55 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Balabəy Ağayev bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə edib. Rəşxan Baxışəliyev (55 kq) və Yaşar Nəcəfov (60 kq) gümüş medala sahib olublar. Rövşən Əliyev (55 kq), Əhməd Yusifov (60 kq) və Adil Kərimli (100 kq) isə bürünc medal qazanıblar.

* * *

Rusiyanın Sankt-Peterburq şəhərində Avropa kuboku yarışı keçirilib. Qitənin 17 ölkəsindən 259 cüdoçunun mübarizə apardığı yarış Azərbaycan idmançıları üçün uğurlu olub. Komandamız turnirdə 7 medala layiq görülüb. Yarışın ilk günündə gənc cüdoçularımız 1 qızıl, 3 gümüş və 2 bürünc medal qazanıblar. 55 kq çəki dərəcəsində mübarizə aparan Rövşən Əliyev bütün rəqiblərinə qalib gələrək çempion olub. Balabəy Ağayev (55 kq), Ramilə Əliyeva (48 kq), Yaşar Nəcəfov (60 kq) gümüş medal əldə ediblər. Əhməd Yusifov (60 kq) və Gültac Məmmədəliyeva Sankt-Peterburqda bürünc medala sahib çıxıblar. Turnirin sonuncu günündə 81 kq çəki dərəcəsində mübarizə aparan Murad Fətiyev üçüncü yeri tutub.

* * *

Tunisdə yeniyetmə cüdoçular arasında Afrika kuboku uğrunda beynəlxalq turnir keçirilib. Azərbaycan cüdoçuları turnirdə 5 qızıl, 6 gümüş və 4 bürünc medal qazanıblar. Vüsalə Kərimova (44 kq), Aytac Qardaşxanlı (48 kq), Mirağa Hacıyev (50 kq), Vüqar Talıbov (66 kq), Yaqub İsmayılzadə (90 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub. Səbinə Əliyeva (48 kq), Ülviyyə Bayramova (52 kq), Südabə Ağayeva (63 kq), Nicat Məmmədli (50 kq), İbrahim Ağakişiyev (81 kq), Toğrul Salmanov (+90 kq) gümüş, Fəridə Səfərova (52 kq), Zaməddin Poladov, Nəriman Mirzəyev ( hər ikisi 60 kq) və Hacıbala Cəbrayılov (73 kq) bürünc medala sahib çıxıb.

* * *

Bakı İdman Sarayında aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Raquf Orucovun xatirəsinə həsr olunmuş “Raquf Orucov Kuboku” ikinci beynəlxalq cüdo turniri keçirilib. Turnirdə Bakını və bölgələrimizi təmsil edən yaşı 21-dək olan oğlan və qızlardan ibarət komandalarla yanaşı, Rusiya və Gürcüstandan gələn cüdo klubları da iştirak ediblər.

Turnirin final görüşündə “Judo Club 2012” və “Qəbələ” klubları qarşılaşıblar. Daha yaxşı çıxış edən “Qəbələ” klubunun yeniyetmə cüdoçuları 5:1 hesabı ilə qalib gələrək “Raquf Orucov Kuboku”na sahib olublar. Bürünc medallara “Atilla-1” və Gürcüstan komandaları layiq görülüblər.

* * *

Antalyada cüdo idman növü üzrə keçirilən IBSA dünya kuboku yarışları başa çatıb. Yığmamız yarışda 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Hüseyn Rəhimli (81 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sevda Vəliyeva (52 kq) gümüş medal qazanıb. Səbinə Abdullayeva (57 kq), Orxan Qarayev (60 kq), Kənan Abdullaxanlı (90 kq) və İlham Zəkiyev (100 kq-dan yuxarı) bürünc medala sahib çıxıb.

## Güləş

Türkiyənin Gebze şəhərində yeniyetmələr arasında sərbəst, yunan-Roma və qadın güləşi üzrə 21-ci “Zəfər Kuboku” beynəlxalq turniri keçirilib. 4 gün davam edən yarışın yekununda sərbəst, yunan-Roma və qadın güləşçilərimiz, ümumilikdə 7 qızıl, 5 gümüş və 8 bürünc medal qazanıblar.

Sərbəst güləş yığmamız komanda hesabında ikinci olub.

Yeniyetmə qızlarımız da komanda hesabında Türkiyədən sonra ikinci pillədə qərarlaşıblar. Yunan-Roma güləşçilərimiz isə komanda hesabında üçüncü yeri tutublar.

* * *

ABŞ-ın Ayova ştatının Ayova-Siti şəhərində sərbəst güləş üzrə dünya kuboku yarışları keçirilib. “B” qrupunda yer alan Azərbaycan milli yığması Kuba yığmasına 8:2, Qazaxıstan millisinə 9:1, Monqolustan pəhləvanlarına isə 7:3 hesabı ilə qalib gəlib. Nəticədə millimiz yarışların final mərhələsinə yüksəlib.

Final mübarizəsində ev sahibi ABŞ yığması millimizə 6:4 hesabı ilə qalib gəlib. Beləliklə, sərbəst güləşçilərimiz yarışlarda ikinci yeri tutublar.

## Boks

Rumıniyanın Tırqu-Jiu şəhərində 22 yaşınadək boksçular arasında Avropa çempionatı keçirilib. Azərbaycan millisi yarışı 1 gümüş və 1 bürünc medalla başa vurub. Komandamızın üzvü Məhəmməd Abdullayev (+91 kq) bürünc medala sahib çıxıb.









Yığmamızın digər üzvü Tayfur Əliyev (56 kq) isə ikinci yeri tutub.

* * *

İtaliyanın Rozeto-deli-Abrutsi şəhərində gənc boksçular arasında Avropa birinciliyi təşkil olunub. Komandamız turnirdə 1 qızıl və 1 gümüş medala layiq görülüb. Vaqif Şirinovun yetirmələrindən Nurlan Səfərov (60 kq) Avropa çempionu tituluna yiyələnib. Yığmamızın 69 kq-dakı təmsilçisi Nicat Həsənov isə ikinci yerlə kifayətlənib. Ölkəmiz 1 qızıl və 1 gümüş medalla komanda hesabında 6-cı yeri tutub.

## Triatlon

Misirin Şarm Əl-Şeyx şəhərində keçirilən açıq Afrika kuboku yarışlarında Azərbaycan triatlonçuları uğurlu nəiticələrlə yadda qalıblar. İdmançılarımız Rostislav Pevtsov və Kseniya Levkovskaya gümüş medal qazanıblar.

R.Pevtsov 37 idmançının mübarizə apardığı yarışda 59 dəqiqə 53 saniyə nəticə göstərib. Qadınların mübarizəsində isə yığmamızın üzvü Kseniya Levkovskaya 1 saat 10 dəqiqə 46 saniyəlik nəticə ilə ikinci pillədə qərarlaşıb.

## Kikboksinq

“Qəbələ” idman klubunun təmsilçisi Pərviz Abdullayev növbəti titulunu qazanıb. Əməkdar idman ustası, peşəkar kikboksinq üzrə beşqat dünya çempionu, “Kobra” ləqəbi ilə tanınan idmançı “ACB KB”nin dünya kəmərinə yiyələnib.

77 kq çəki dərəcəsində çıxış edən kikboksçumuz bu uğura Moskvada keçirilən “ACB KB 15” turnirində nail olub. Döyüşçümüzün kəmər uğrunda qarşılaşmadakı rəqibi çeçen əsilli Rusiya idmançısı İslam Baybatırovu məğlub edib. O, döyüşün 3-cü raundunda nokautla qalib gələrək dünya kəmərini qazanıb.

## Şahmat

Azərbaycan qrossmeysteri Vüqar Rəsulov 9 mümkün xaldan 6,5 xal toplayaraq, Türkiyənin Qəhrəmanmaraş şəhərində keçirilən “Medal Day Open” beynəlxalq turnirinin “A” kateqoriyasında qalib gəlib. Azərbaycanın digər şahmatçısı Misrəddin İsgəndərov, türkmənistanlı Melis Annaberdiyev və gürcüstanlı Gigi Kuparadze də eyni xala sahibdirlər. Əlavə göstəricilərə görə beynəlxalq usta M.İsgəndərov gümüş medala layiq görülüb.

* * *

Azərbaycan şahmatçısı Azər Mirzəyev Katmanduda (Nepal) keçirilən beynəlxalq turnirdə ikinci yer tutub. Sonuncu - 9-cu turda şahmatçımız hindistanlı Harşa Baratakoti ilə heç-heçə oynayıb. Həmyerlimiz və daha 6 iştirakçı turnirdə 7 xal toplasa da ən yaxşı əlavə əmsal A.Mirzəyevdə olduğundan, o, ikinci yerə layiq görülüb.

## Karate

Azərbaycan milli komandasının və “Qəbələ” idman klubunun təmsilçisi Rafael Ağayev Karate Kombat Təşkilatının üzvü olub. İdmançımız full-kontakt karate üzrə döyüşlərdə debüt edib.

Beşqat dünya, onqat Avropa çempionu olan karateçimiz döyüşünə Macarıstanın paytaxtı Budapeştdə çıxıb. R.Ağayev ilk döyüşündə Dominikan Respublikasının təmsilçisi Dionisio Qustavo ilə qarşılaşıb və qələbə qazanıb.

* * *

İstanbulda karate üzrə doqquzuncu şotokan dünya çempionatı keçirilib. “Şobu İppon”, “WKF kumite” və “sambom kumite” versiyaları üzrə keçirilən yarışda 31 ölkənin idmançıları iştirak ediblər. Ölkəmizi təmsil edən “Qaraqaplan” klubunun idmançıları Mədinə Kazımova (+25 kq) və Yusif Cəfərov (30 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Digər təmsilçimiz Orxan Musayev isə komanda kumite yarışlarında birinci olub.

## Futzal

Bakıda təşkil olunan birinci Türk Şurası Universitet İdman Oyunlarının (Türk Universiadası) futzal yarışlarında Azərbaycan millisi qalibi olub. Birincilik uğrunda Azərbaycan Texniki Universitetinin idman zalında keçirilən oyunda millimiz Türkiyə yığması ilə qarşılaşıb. Rəqibini 9:2 hesabı ilə məğlub edən Azərbaycan futzalçıları turniri birinci pillədə başa vurublar.

## Taekvondo

Tunisin Hammamet şəhərində gənc taekvondoçular arasında dünya birinciliyi keçirilib. Lisenziya xarakterli yarışda 120 ölkədən 962 idmançı mübarizə aparıb. Azərbaycan millisi turniri 5-ci sırada tamamlayıb. Komandamız dünya birinciliyində 1 qızıl və 1 gümüş medala sahib olub. Təmsilçilərimizdən Cavad Ağayev (63 kq) çempion tituluna yiyələnib. Digər idmançımız Xanoğlan Kərimov (51 kq) yalnız finalda məğlub olaraq ikinci yeri tutub. Komandamız bu nəticə ilə turnirdə beşinci yerə sahib çıxıb.

## Stolüstü tennis

Qadınlardan ibarət stolüstü tennis üzrə Azərbaycan komandası Türk Şurası İdman Oyunlarının qalibi olub. İkinci yeri Türkiyə millisi, üçüncü pilləni isə Qırğızıstan komandası tutub.

Kişilərin komanda yarışlarında isə Türkiyə millisi çempion olub. Azərbaycan yığması ikinci, Qırğızıstan komandası isə üçüncü pillədə qərarlaşıblar. Turnirin sonuncu günündə qadınlar və kişilər arasında şəxsi yarışlar keçirilib. Ölkəmizi qadınların yarışında təmsil edən Ning Jing, kişilərin mübarizəsində isə Yang Xinyu birinci yerə çıxıblar.

## Çimərlik futbolu

Çinin Haikou şəhərində təşkil olunmuş “2018 CFA Belt and Road İnternational Beach Soccer Cup” beynəlxalq turnirdə iştirak edən çimərlik futbolu üzrə Azərbaycan milli komandası yarışın qalibi olub. Sonuncu oyunda Çexiya yığması ilə qarşılaşan millimiz 8:3 hesabı ilə qələbə qazanıb. Sabir Allahquliyev, Ramil Əliyev və Orxan Məmmədovun dubl etdiyi oyunda digər qolları Asif Zeynalov və İlkin Hacıyev vurublar.

## Futbol

İtaliyada 13 yaşınadək futbolçular arasında Qallini dünya kuboku yarışları keçirilib. Yarışda ölkəmizi təmsil edən “Qəbələ” komandası 3-cü yer uğrunda qarşılaşmada Sloveniyanın “Bravo” komandası ilə görüşüb. Matçın taleyini 1 qol həll edib. Sloveniya təmsilçisi 1:0 hesablı qələbə ilə 3-cü yeri tutub. “Qəbələ” isə turniri 4-cü pillədə başa vurub.

## Badminton

Yeniyetmə badmintonçularımız Ukraynanın Xarkov şəhərində keçirilən beynəlxalq turnirdə iştirak ediblər.

Təmsilçilərimizdən Məhəmmədəli Bayramlı - Sərxan Bağırov dueti 2007-2008-ci illər təvəllüdlü idmançılar arasında qoşa yarışlarda üçüncü yeri tutublar. Tuncay İsmayılov - İlfat Akçurin cütlüyü isə 2005-2006-cı illər təvəllüdlü badmintonçular arasında beşinci olublar. İlfat Akçurin oğlanların şəxsi yarışında da eyni sırada qərarlaşıb. Qarışıq cütlüklərin yarışında isə Tuncay İsmayılov - Nərmin Şərifova dueti beşinci pillədə yer alıb.

Məşhurlar

# Kral və şahzadələr: idmanı saray həyatından üstün tutan varislər

*İdman insan həyatında vacib amillərdən biridir. Bəziləri idmanla həvəskar, bəziləri isə peşəkar şəkildə məşğul olurlar. Müxtəlif peşə sahiblərinin həvəskar şəkildə idmana başlaması sonradan onları peşəkar idmançıya çevirir. Kitablardakı nağıllardan, ekrandakı filmlərdən hər zaman şahların, kralların və digər saray sakinlərinin həyatı barədə məlumat almışıq. Müasir dövrümüzdə də monarxiya dövlətləri mövcuddur. Krallar, şahzadələr və hersoqlar fəaliyyətlərini bu istiqamətdə davam etdirirlər. Asudə vaxtlarını isə onlar da bizim kimi səmərəli keçirməyə çalışırlar. Təbii ki, asudə vaxtın səmərəli keçirilməsində idman bilavasitə rol oynayır. Elə bu məqsədlə biz kralların və şahzadələrin idman həyatı ilə bağlı yazını oxucularımıza təqdim edirik.*

## Kapitan idmanda da peşəkardır

**Uels Şahzadəsi Harri (33 yaş, Böyük Britaniya)**



Birləşmiş krallığın "şıltaq uşaq" adını qazanan beşinci davamçısı özünü heç də şahzadələrə layiq aparmırdı. Bir vaxtlar o, pis vərdişlərin aludəçisinə çevrilmişdi. Amma ətrafdakı qınaqlar və ictimai baxış öz sözünü dedi. Hər şey normal vəziyyətə qayıtdı. Hərb sahəsinə nəzarət edən şahzadə krallığın atçılıq mühafizəsində çavuş, İngiltərə hərbi hava donanmasının kapitanı idi. Bunun üçün o, sadəcə əla formada olmağa məcbur qaldı. Sağlam həyat tərzi üçün davamçı fitnes-zalında fərdi məşqlərə qoşuldu. Reqbi, polo və xizəklə sürüşmədə peşəkarlığa yiyələndi.

## Müxtəlif növlər, eyni nəticə

**Kembric hersoqu Uilyam (35 yaş, İngiltərə)**



Əsilzadəliyin nümayəndəsi kimi Uilyam polo, qolf və kriket idman növlərini çox sevir. Bir zadəgan kimi o, daha çox yoqaya üstünlük verir. Hesab edir ki, sağlam bədən üçün yoqa ən ideal məşğuliyyət növüdür. Hələ məktəbdə oxuduğu illərdə Uilyam hokkey və reqbi yığma komandalarının kapitanı olub. Tanınmış İtonski kollecində təhsil aldığı illərdə o, idman fəaliyyətini uğurla davam etdirib. Yaxşı futbol və basketbol oynaya bilirdi. Üzgüçülük və qaçışda da öz qüvvəsini sınayıb. O, uzun müddət futbol komandasının lideri olub. Həmçinin su polosunda da özünü təsdiqləyə bilib. Su polosu komandasının tərkibində Şotlandiya universitetinə qarşı Kelt milli turnirinin debüt matçında iştirak edərək, Hərbi Akademiyada rəqabət yarışlarında maneə kurslarını da bitirib.

## İdman onun həyat tərzinin əsasını təşkil edir

**Vesterhötland hersoqu Daniyel (44 yaş, İsveç)**



Tarixə nəzər salsaq görərik ki, heç vaxt Vesterhötland hersoqları üçün idman dəbli məşğuliyyət sayılmayıb. Amma bu, heç də belə deyil. Belə ki, şahzadə Viktoriyanın həyat yoldaşı Daniyel fitnes üzrə təcrübəli təlimatçıdır. O, hərbi bacarığı və sahib olduğu idmançı bədəni ilə öyünə bilər. Hersoq bir vaxtlar İsveçrənin Evle şəhərində yerləşən Helsinq polkunda xidmət edib. İki il paytaxt Stokholmda İsveçrə Gimnastika Federasiyasının ən yüksək milli məktəbində təhsil alıb. Bu vaxt ərzində o, fitneslə yanaşı, qılıncoynatma təcrübəsinə də nail olub. Tezliklə Daniyel "Balance Training" kompaniyasını yaratdı. İsveçrəli fitness-məşqçisi kimi çalışırdı. Onun fərqli məşq üslubu bir çoxlarının diqqətini çəkmişdi. O, gələcək həyat yoldaşı ilə də belə məşqlərin birində tanış olmuşdu.

Yeni qurulan ailənin üzvləri idmana çox həvəsli idilər. Onlar təkcə fitneslə deyil, həm də idmanın digər növləri ilə məşğul olurdular. Hətta 2011-ci ildə Norveçdə keçirilən dünya çempionatında cütlük xizəksürmə yarışlarında birlikdə iştirak etmişdi. Daniyel saray daxilində işlərinin çox olmasına baxmayaraq, idmana vaxt ayıra bilirdi. Hersoq təkcə özünü düşünmürdü. Çalışırdı ki, kraldan sonra hökmranlıq etdiyi ölkəsində idman və bədən tərbiyəsi inkişaf etsin. Bir çox yarışlarda azarkeş kimi iştirak edən Daniyel bu sahənin inkişafı üçün böyük işlər görüb.

## Titulları arasında idman uğurları xüsusi yer tutur

**Şeyx Xalid ibn Əhməd Əli Xəlifə (29 yaş, Bəhreyn)**



O, ölkəsinin gənclər və idman işləri üzrə Ali Şurasının birinci sədr müavini, Bəhreyn Atletika Federasiyasının prezidenti, krallığın xüsusi polkunun baş komandiri idi. Bu titulları Şeyx Xalid ibn Əhməd Əli Xəlifəyə məxsusdur. Şeyx Xalid buna baxmayaraq idmanı sevən biri kimi çoxdan tanınır. O, bir çox idman yarışlarında da iştirak edərək, mükafatlara layiq görülüb. Şahzadə bu günə kimi müxtəlif yarışlarda öz bacarığını nümayiş etdirir. Onun məşğul olduğu idman növləri siyahısında əsas yeri üzgüçülük, futbol və konkur (atçılıq) tutur.

## Babalardan qalan ənənə

**Şahzadə Hokon (44 yaş, Norveç)**

Şahzadə Hokon idmanı sevən saray nümayəndələrindən biridir. 1994-cü ildə Norveçin Lillehammer şəhərində keçirilən XVII Qış Olimpiya Oyunlarının açılışında o da iştirak edib. Ona həmin vaxt "ağ olimpiada"nın məşəlini yandırmaq həvalə olunmuşdu. Bundan başqa o, 2016-cı ildə həmin şəhər də keçirilən gənclərin Qış Olimpiya Oyunlarında kerlinq daşını ilk dəfə simvolik olaraq atmışdı. Şahzadə idman həvəskarları əhatəsində özünün idmançı görünüşü ilə diqqət çəkir. Hokon qış idman növləri ilə yanaşı, su idman növlərinə də böyük həvəs göstərir. Yaxşı xizək və motorlu qayıq sürür, vindsörfinqlə də məşğul olur. Ümumiyyətlə yelkənli qayıqsürmə idman növünə olan həvəs Norveç şahlığının ailəvi marağından irəli gəli. Hokonun atası və babası bir vaxtlar ölkənin Olimpiya yığmasının heyətində yer alıblar.



## Onun klubu dünyada tanınır

**Şahzadə II Albert (59 yaş, Monako)**

Monako knyazı Albertin həyat yoldaşı üzgüçülük üzrə Cənubi Afrika çempionu Şarlen Uittstokdu. Onları idmana olan həvəs bir-birinə bağlayıb. Albertin özü də idmanı çox sevir. Sarayın digər nümayəndələrindən fərqli olaraq o, macəraları idmanda axtarıb, tapıb. Elə sevginin özünü də. Şahzadə 1985-ci ildə "Dakar" və 2006-cı ildə isə Şimal Qütb ekspedisiyasında iştirak edib. Bobsley üzrə Monako



yığmasının heyətində o, beş dəfə Olimpiya Oyunlarında (üçündə əvəzedici heyətdə) yer alıb. II Albert Beynəlxalq Olimpiya Komitəsinin (BOK) üzvüdür. Məlumdur ki, o, fransanın futbol üzrə çempionatında iştirak edən "Monako" klubunun sahibidir. O, üzgüçülük, tennis, xizəksürmə, cüdo, nizətullama, sürüşmə, yelkənli qayıqsürmə və qılıncoynatma idman növləri ilə də məşğul olur.

## Marafonda fərqlənən kiçik leytenant



**Şahzadə Amedeo (31 yaş, Belçika)**

Bodvin şahzadəsi Amadeo Belçikada Karabinlər alayının kiçik leytenant rütbəsini daşıyır. O, Belçika kralının birinci nəvəsi sayılır. Krallığın varisi idmana çox böyük həvəs göstərir. Reqbi və qaçış idman növləri ilə məşğul olur. 2008-ci ildə Nyu-Yorkda təşkil olunan marafon qaçışında iştirak edib, yüksək şücaət göstərib.

## Xizəkdən başlayıb, reqbi ilə davam edən şahzadə həyatı

**Şahzadə Sebastyan Lüksemburqlu (24 yaş, Lüksemburq)**



Lüksemburqlu şahzadə gənclik illərində adrenalinli həyatını idmana həsr edir. Bu heç də kral sülaləsinə xas olan xüsusiyyət deyil. Şahzadə xizəksürmə idman növünə qarşı laqeyd qala bilmir. O, alpinizm idman növü ilə maraqlanır, reqbini isə çox sevir. Ali təhsil aldığı universitetin yığma komandasında da məşq edir. Reqbi üzrə Lüksemburq milli komandasının heyətində çıxış edir. Sebastyan səyahətlərdən də geri qalmır, bir sözlə, öz asudə vaxtını səmərəli keçirir.

## Milli rəqsi ilə dünyada tanınan kral

**Kral Narodom Siamoni (64 yaş, Kamboca)**



Narodom Siamoni "kxmer" rəqsinin (klassik ənənəvi Kamboca rəqsi) sədaları altında həyatda necə hərəkət etməyi öyrənən saray rəhbəridir. Kambocada "kxmer" rəqsi idman növü kimi təbliğ olunur. Kral Siamoni "kxmer"ə klassik rəqsdən başlamış, onu baletlə təkmilləşdirmişdi. Kamboca kralı həttа bir vaxtlar Parisdə rəqs müəllimi kimi də fəaliyyət göstərmişdi.

2004-cü ildə Kambocada kral seçildikdən sonra Narodom Siamoni asudə vaxtlarını daha səmərəli keçirməyə başladı. O, "kxmer" rəqsindən başqa qaçış və velosiped idman növü ilə də məşğul olur.

## 7 illik hazırlıq və Olimpiya mükafatçısı

**Şahzadə Abdulla ibn Mütaib ibn Abdulla Əli Səid (33 yaş, Səudiyyə Ərəbistanı)**




Atçılıq idmanı şərq krallığının, ümumiyyətlə kral ailəsinin sevimli məşğuliyyətidir. Onlar bunu təkcə hobbi kimi qəbul etmirlər. Kral ailəsinin üzvləri vaxtaşırı olaraq bu növdə beynəlxalq yarışlarda iştirak edir, mükafatlar qazanırlar. Ailənin bu növdə ən layiqli təmsilçisi şahzadə Abdullanı buna misal göstərmək olar. O, Londonda doğulub. Atçılığın sirlərinə də elə Böyük Britaniyada yiyələnib. Şahzadə tanınmış ingilis məşqçi Stiven Hedlidən dərs alıb. O, gün ərzində 7 saat məşq edərək, təlimləri Hollandiyada davam etdirib. İki illik hazırlıqdan sonra Şahzadə Abdulla yarışlara qoşulub. Belə ki, 2006-2010-cu il Asiya Oyunlarında öz ölkəsini təmsil edərək, qızıl medal qazanıb. 2012-ci ildə Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında isə bürünc medala layiq görülüb.

*Hazırladı:*
*Anar Əhmədov*

## Şahmatçımız dünya çempionu oldu

Albaniyanın Durres şəhərində məktəbli şahmatçılar arasında dünya birinciliyi keçirilib. İsveçrə sistemi üzrə keçirilən yarışlar 9 turdan ibarət olub. Mükafat uğrunda 7-17 yaşlı 400 şahmatçı mübarizə aparıb. Azərbaycanı yarışda 16 şahmatçı təmsil edib. Onlarının dördü müxtəlif əyarlı medallar qazanıb. Zəka sahiblərimizdən Murad İbrahimli 17 yaşına qədər məktəbli şahmatçılar arasında dünya birinciliyinin qızıl medalına layiq görülüb. Təmsilçimiz doqquz turdan 7,5 xal toplayıb. On yeddi yaşına qədər şahmatçıların qrupunda daha bir şahmatçımız Aydan Xocatova gümüş medala sahib olub. Yusif Kərimli 7 yaşına qədər şahmatçılar arasında ikinci yeri tutub, İsmayıl Süleymanlı isə 9 yaşına qədər şahmatçılar arasında bürünc mükafatçı olub.

## Bakı turnirinin qalibləri müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Abşeron Olimpiya İdman Kompleksində Sabir Hüseynovun xatirəsinə həsr olunmuş 2002-2003-cü illər təvəllüdlü idmançılar arasında sambo üzrə açıq paytaxt turniri keçirilib.



Turnirdə 172 idmançı 10 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qaliblər müəyyənləşib. İlk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

Xəbərlər

### Xaçmazda “Federasiya kuboku” yarışı keçirilib

Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə Xaçmazda “Federasiya kuboku” yarışı keçirilib. Regionlar arası “Federasiya kuboku” uğrunda turnir bu ilin sentyabrında Bakıda təşkil olunacaq cüdo üzrə dünya çempionatının təbliğinə həsr olunub. Daha yaxşı nəticə göstərən “Şimal-Şərq-1” komandası mərhələ yarışının qalibi olub. “Sumqayıt-2” klubu 2-ci, “Naxçıvan-1” komandası isə 3-cü yeri tutub. Yeniyetmə cüdoçular arasında “Federasiya kuboku” uğrunda komanda yarışlarının növbəti mərhələsi mayda keçiriləcək.

### Yığmamızın ev oyunlarının məkanı dəyişdi

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin Qızıl Avropa Liqasında ev oyunlarını keçirəcəyi məkan dəyişdirilib. Faiq Qarayevin komandası rəqiblərini Bakı İdman Sarayında qəbul etməyəcək. Son qərara əsasən yığmamız ev oyunlarını Voleybol Mərkəzində keçirəcək.



Qeyd edək ki, komandamız Avropa Liqasında Bolqarıstan, Ukrayna və Portuqaliya ilə birgə A qrupunda yer alıb. Yarışa isə may ayında start veriləcək.

## Respublika birinciliyinin qrup mərhələsi yekunlaşıb

***Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal üzrə II respublika birinciliyinin qrup mərhələsinə yekun vurulub.***

***Qrup mərhələsində ümumilikdə 31 ali və orta ixtisas təhsili müəssisəsinin komandaları iştirak edib. Komandalardan 21-i Bakı şəhərini, 10-u isə regionları təmsil edib.***

Altı qrupa bölünərək mübarizə aparan komandaların oyunları milli Olimpiya komandalarının təlim-məşq bazasında, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Şirvan Dövlət İqtisad və Humanitar Kollecinin, Göygöl Rayon Olimpiya İdman Kompleksinin idman zallarında keçirilib.

Gərgin mübarizə şəraitində keçən yarışda hər qrup üzrə birinci və ikinci yerləri tutan 10 ali və iki orta ixtisas təhsili müəssisəsinin komandaları pley-off mərhələsinə vəsiqə qazanıb.

Qrup mərhələsi üzrə 51 oyun keçirilib.

Növbəti mərhələ üzrə oyunlar isə mayın 5-də start götürəcək.

Yarışda I, II və III yeri tutan komandalar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. Bundan başqa, təsis edilmiş 5 nominasiya üzrə seçiləcək tələbə futzalçılar da xüsusi mükafatlarla təltif olunacaqlar.



Birinciliyin keçirilməsində əsas məqsəd ali və orta ixtisas təhsili müəssisələri tələbələri arasında futzal idman növünün kütləviliyinin təmin olunması, beynəlxalq yarışlar üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsi, ölkənin yeniyetmələrdən, gənclərdən ibarət yığma komandalarına perspektivli tələbə futzalçıların seçilməsinin təmin edilməsindən ibarətdir.

Birincilik Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı, Təhsil Nazirliyi və Azərbaycan Futzal Federasiyasının dəstəyi ilə keçirilir.




*(əvvəli ötən sayımızda)*

***Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatına 44 gün qalır. 4 ildən bir keçirilən ən böyük futbol bayramında 32 komanda ən güclünü müəyyənləşdirəcək. Yekunda yalnız bir yığma komanda dünya kubokunu qaldıracaq. Həmin komandanın adı isə finalda müəyyənləşəcək. “Olimpiya dünyası” qəzeti öz sadiq oxucularına dünya çempionatı ilə bağlı maraqlı yazıları təqdim etməkdə davam edir. Bu sayımızda finala vəsiqə qazanan komandalar barəsində maraqlı statistikanın ardını çap edirik. Qeyd etdiyimiz kimi, yazıda yığma komandaların təsnifat mərhələlərində göstərdiyi nəticələr yer alıb.***

#### Serbiya

- Branislav İvanoviç yığma komandanın müdafiə xəttində çıxış edən ən etibarlı futbolçudur. Təsnifat mərhələsində bu futbolçu irəli xətdə çıxış edən komanda yoldaşlarını topla təmin etməyi bacarır.

- Serbiya millisi sabit heyətə malik olan yığma komandadır. Yığmanın 13 futbolçusu 200 dəqiqə ərzində meydanda rəqibə qarşı eyni heyətdə çıxış edib.

# Seçilmişlərin seçilən xüsusiyyətləri və ya 32 komandanın sərgüzəşti

### D qrupu

#### Argentina

- Maraqlıdır ki, seçmə mərhələdə komandanın aparıcı üzvləri-Serxio Aquero, Paulo Dibala və Mauro İkardi heç bir qarşılaşmada fərqlənə bilməyib. Yalnız Qonzalo İquain bir görüşdə rəqib qapıçısını məyus edib. Heyətdə çıxış edən ehtiyat futbolçulardan yalnız Lukas Pratto vurulan toplarda liderlik edir-2 qol.

- Təsnifat mərhələsində “Albiseleste”nin heyətində 45 futbolçu meydana çıxıb. Onlardan 15-i müdafiəçidir. Heyətdə yeganə futbolçu, qapıçı Sexio Romerodur ki, o da bütün görüşlərdə əsas heyətdə yer alıb.

#### İslandiya

- Komandanın qapıçısı Hannes Halldorsson qapıya vurulan zərbələrin 84 faizini uğurla dəf edib. Bu göstərici ilə o, Avropa qitəsini Dünya çempionatında təmsil edən və təsnifatda iştirak edən yığma qapıçılar arasında liderlik edir - 66 faiz.

- İslandiya seçmə mərhələdə ən az qol vuran komandadır - 16 qol.

- Yığma komanda qolların əksəriyyətini cərimə zərbəsindən və rəqib qapısının yaxınlığından vurub - 7 metr.

#### Xorvatiya

- “Damalıların” heyətində İvan Perişiç ən dəqiq zərbə vuran futbolçudur - 13 faiz.

- Luka Modriç isə universal futbolçudur. O, topla hərəkətlərdə ən yüksək göstəriciyə malikdir - 62 faiz. Modriçin sərt ötürmələri 39, fərdi zərbələri isə 40-a bərabərdir.

#### Nigeriya

- Seçmə mərhələdə Afrika qitəsini təmsil edən Nigeriya millisi bir dəfə də olsun künc zərbəsindən və cərimə meydanından qol buraxmayıb. “Super qartallar” keçirdiyi qarşılaşmalarda 74 hücumun 19-nu uğurla dəf ediblər. Qapılarından buraxdığı qolların əksəriyyəti onbirmetrlik cərimə zərbələrinin payına düşüb.

- Komandanın heyətində çıxış edən Ogenyi Onazi 62 qarşılaşmada ən çox və ən dəqiq ötürmə edən futbolçudur.



### E qrupu

#### Braziliya

- Keçirdiyi görüşlərdə Neymar ən çox (18) topla hərəkət edən (dribling) futbolçudur. Millinin aparıcı üzvü bu hərəkətlərin 12-sini uğurla yekunlaşdırıb. Driblinqlərin 6-sı isə qayda pozuntusu ilə nəticələnib.

- Braziliya millisi topu özlərinə aid meydançada ən çox itirən yığma komanda sayılır.

#### İsveçrə

- Qranit Caka seçmə mərhələdə ən yaxşı ötürmə edən futbolçudur. Onun 987 ötürməsindən 876-sı dəqiq olub.

- İsveçrə millisi mərkəzdən uğurla hücum quran ən məhsuldar komandadır - 13 qol.

#### Kosta-Rika

- Kosta-Rika millisi seçmə mərhələdə rəqib qapılarından keçirdiyi 24 qolun 15-ni matçların son 30 dəqiqəsində vurub.

- Bu yığma komandaya qarşı oynayan rəqiblər hər bir qarşılaşmada 4,1 dəfə qayda pozuntusuna yol veriblər.

### F qrupu

#### Almaniya

- Çoşua Kimmix Almaniya millisinin yeganə futbolçusudur ki, təsnifat mərhələsində keçirilən bütün qarşılaşmalarda əsas heyətdə yer alıb.

- Toni Kroos ötürmələrinə görə “bundestim”in ən yaxşı futbolçusudur- 112 ötürmə.

- Avropa yığma komandaları arasında Almaniya millisi yeganə heyətdir ki, matç ərzində ən çox topa sahib olub - 71 faiz.

#### Meksika

- Lazano Bohena “salçido”nun heyətində yeganə futbolçudur ki, onun qapıya vurduğu 9 topdan 4-ü qol olub.

- Orta göstəricilərə görə, meksikalılar təsnifat mərhələsində 2,6 dəfə oyundan kənar vəziyyətə düşüb. Təkcə Çiçarito 15 dəfə qayda pozuntusuna yol verib.

- Meksika millisi 10 dəfə standart vəziyyətdən fərqlənib. Bu isə Şimali Amerika təmsilçiləri arasında ən yaxşı göstəricidir.

#### İsveç

- “Mavi-sarılar” seçmə mərhələdə rəqib qapısına ən dəqiq zərbə vuran yığmadır - 50 faiz.

- İsveçlilər Avropa komandaları arasında təkbətək vəziyyətdən yararlanan yığmaya malikdirlər. Onlar 21 dəfə bu vəziyyətdən istifadə edib, hesabda irəli çıxıblar.

#### Cənubi Koreya

- Son Hin Min komandanın ən məhsuldar futbolçusudur - 7 qol.

- Cənubi Koreya yığması Asiya qitəsində ən çox topa sahib olan komandadır - 66 faiz.

### G qrupu

#### Belçika

- Tomas Munyer sağ kənar müdafiəçisi kimi komandada liderdir. Təkcə onun 7 ötürməsini Romelu Lukaku və Eden Hazard 5 dəfə qola çevirib.

- Komanda qol hücümlarında ən çox vaxt itirən heyətə malikdir - 73,8 saniyə.

- Belçika seçmə mərhələdə ən yaxşı driblinqə malikdir - 67 faiz.

#### Panama

- Şimali amerikalılar keçirdikləri qarşılaşmaların əksər hissəsi qayda pozuntusu ilə yadda qalıb - 15,9. Amma buna baxmayaraq seçmə mərhələdə onlar bir dəfə də olsun qırmızı vərəqə ilə cəzalandırılmayıblar.

- Panamalılar hücumda 60 faiz təkbətək vəziyyətdən istifadə edə bilirlər. Bu isə qitə yığma komandaları arasında ən yaxşı göstəricidir.

*(ardı var)*

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19